Xalqın qəzeti!

# Xalq qəzeti

№ 130 (30534) 25 iyun 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Xəzər Azərbaycanı dünyaya birləşdirən su yoludur



**Uzun illərdir ki, iyun ayının 25-i bütün dünyada Beynəlxalq Dənizçilər Günü kimi qeyd olunur. Dənizçi peşəsinə verilən yüksək dəyərin göstəricisi olan bu əlamətdar hadisə ölkəmizdə də diqqətdən kənarda qalmayıb. Belə ki, Prezident İlham Əliyevin 2014-cü il 19 iyun tarixli Sərəncamı ilə Azərbaycanda "Dənizçi Günü" peşə bayramı təsis olunub. Həyatını çətin və şərəfli peşəyə həsr etmiş dənizçilər əvvəlki illərdə olduğu kimi, budəfəki peşə bayramlarını da ruh yüksəkliyi, uğurlu göstəricilərlə qeyd edirlər.**

Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizində bağlayıcı rolunu oynayan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Transxəzər istiqamətində yüklərin və sərnişinlərin daşınması ilə eyni zamanda, dənizdə həyata keçirilən neft və qaz əməliyyatlarına müvafiq nəqliyyat xidmətləri göstərir. Bütövlükdə isə, Azərbaycanda gəmiçiliyin inkişafı neft sənayesinin yaranması və tərəqqisi ilə sıx bağlıdır. Daha doğrusu, 166 yaşı olan Azərbaycan dəniz nəqliyyatının zəngin və möhtəşəm tarixinin başlanğıcı XIX əsrdə Bakıda neft sənayesinin sürətli inkişaf dövrünə təsadüf edir. Belə ki, həmin illərdə neft və neft məhsullarının daşınması üçün yeni üzən vasitələr tələb olunurdu. Təsadüfi deyil ki, dünyada ilk neftdaşıyan "Aleksandr" barjı məhz 1873-cü ildə Xəzərdə istismar olunub. Dünya üzrə istehsal olunmuş ilk tanker – "Zərdüşt" də (1878-ci il) Xəzərdə səfərlər edib. Bundan əlavə, ilk daxiliyanma mühərrikli "Vandal" (1903-cü il), ilk reversivli iki mühərriklə çalışan "Delo" (1908-ci il) gəmilərində üzmək şərəfinə də Xəzər dənizçiləri nail olublar.

*(ardı 9-cu səhifədə)*

## Pusqudan açılan atəşin kölgəsində gizlənənlər

### Son vaxtlar şərti sərhəddə atəşkəsin pozulması bəzi ehtimallara yol açır

**Bəs, Ermənistan tərəfinin sülh danışıqlarının indiki yekun mərhələsində atəşkəs rejimini pozması, Azərbaycan Ordusunu təxribata sövq etmək cəhdləri nədən xəbər verir? Tərəflərin sülhə bu qədər yaxınlaşdığı indiki məqamda münasibətlərin yenidən tarıma çəkilməsi, bölgənin hərbi qarşıdurma meydanına çevrilməsi kimlərə sərf edir? Qeyd edək ki, Ermənistan silahlı qüvvələri tərəfindən son günlərdə atəşkəs rejimi mütəmadi olaraq pozulur.**



İnanmaq çətindir, amma İrəvanın son davranışları hadisələrin xoşagəlməz məcrada inkişafa meyillənməsi təəssüratını yaradır. Görünən odur ki, Ermənistan hakimiyyəti yaxın qonşuları ilə sülhün və faydalı əməkdaşlığın yollarını axtarmaq əvəzinə, səmərəsiz və özü üçün təhlükəli "hərbi ssenarilər" üzərində düşünmək riskinə gedir. İrəvanın özünə Qərbdə etibarlı tərəfdaşlar tapmaq, müasir hücum silahları əldə etmək, hətta ənənəvi partnyorlarından fərqli ölkələrlə şübhəli sövdələşmələrə baş vurmaq cəhdləri hələ də davam edir. Əgər sözdə bir şeyi deyib, arxada fərqli hərəkətlər edən Paşinyan iqtidarı bu siyasi kursu davam etdirərsə, onda onu qarşıda indi üzləşdiyi problemlərdən daha böyük "sürprizlər" gözləyir.

Bu gün Cənubi Qafqaz uğrunda davam edən hərbi-siyasi çarpışmaların fonunda Moskva ilə açıq qarşıdurma yolunu seçən İrəvanın sarsıdıcı zərbəni hansı cinahdan alacağı özü üçün də tapmaca olaraq qalmaqdadır. Onun uğursuzluğa düçar bu "çoxstullu siyasi oyun"una Cənubi Qafqazın digər ölkələrini də cəlb etmək kimi məkrli planı da iti gözlərdən yayınmır. Əsl oyunun dünyanın "böyük gücləri" arasında getdiyini anlamaq istəməyən Hayastan başbilənləri son nəticədə ilk qurbanlardan birinin məhz ermənilərin özlərinin olacağı perspektivini də unutmamalıdırlar. Siyasi təlatüm və mülki qarşıdurma vəziyyətinə çatdırılmış erməni cəmiyyətinin az sonra yenidən Moskvaya üz tutacağını da istisna etmək olmaz. Çünki yalanları səbəbindən hamı tərəfindən tərk ediləcək Ermənistanın, yüz il əvvəl olduğu kimi, son pənahgahını yenə şimalda axtaracağı heç kəsi təəccübləndirməməlidir.

**(ardı 4-cü səhifədə)**

## Hayları "Sezar" da xilas edə bilməyəcək

**İyunun 17-də Paris və İrəvan arasında "Sezar" özüyeriyən artilleriya qurğularının alqı-satqısına dair imzalanmış saziş həm Ermənistanda, həm də Azərbaycanda ciddi müzakirə olunur. Qeyd edək ki, sazişə Hayastanın müdafiə naziri Suren Papikyan və onun fransız həmkarı Sebastyan Lekornu imza atıblar. Sənədə əsasən Ermənistan qarşıdakı 15 ay ərzində 36 ədəd "Sezar" haubitsası almalıdır.**

Ancaq hərbi ekspertlər bu alqı-satqının uğursuz olması qənaətindədirlər. Onlar bu fikirdədirlər ki, sazişin imzalanması zamanı bir sıra yerli xüsusiyyətlər nəzərə alınmayıb. Ümumi fikir bundan ibarətdir ki, Ermənistanın Fransadan "Sezar" silahlarını alması o qədər də uğurlu addım deyil. Belə ki, bu qurğular kifayət qədər böyükdür və çəkisi də ağırdır. Nəhəng ölçülərinə görə, "Sezar" dağlıq və yolsuzluq şəraitlərdə kifayət qədər zəif manevr imkanları nümayiş etdirir. Bundan başqa, "Sezar" qurğuları məhdud sayda, cəmi 18 ədəd sursat dəstinə malikdir. Bu, ona intensiv döyüş şəraitində üç dəqiqə sursat atmağa imkan verir.



"Sezar"ların istifadə etdiyi mərmilər 155 mm-lik NATO kalibrlidir. Ermənistanda isə bir dənə də olsun bu ölçüdə mərmi yoxdur. Bu mərmiləri istehsal edən şirkətlər isə hazırda Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar intensiv sifarişlər alır. Yəni Ermənistan üçün yaxın zamanda mərmi istehsal edə bilməyəcəklər.

*(ardı 3-cü səhifədə)*

## Xortdanın İrəvandan "cəhənnəm məktubları"

Səhifə ⇨ 4

## Baykal – ən dərin göl



Səhifə ⇨ 9

## Xəzər sahilində mənəvi xəzinə



Səhifə ⇨ 10

## Dağıstanda ikiqat terror aksiyası



Səhifə ⇨ 11

## Paşinyanın "yaşam ideologiyası"



Səhifə ⇨ 3

## Naxçıvanda çalınan "Qərbi Azərbaycana qayıdış" zəngi

Səhifə ⇨ 8



## Aqrar sığorta kəndi itkilərdən qoruyur

Səhifə ⇨ 7

## Qara və əlvan metal qırıntı və tullantıları ixracının tənzimlənməsi sahəsində əlavə tədbirlər və “Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanının ləğv edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkə ərazisində yaradılan əlavə dəyərin həcminin davamlı artırılması, yerli emal müəssisələrinin xammal təchizatının yaxşılaşdırılması və emal prosesinin dərinləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. qara və əlvan metal (qiymətsiz metal) qırıntı və tullantılarının (sınma, kəsilmə, dağılma və ya digər səbəblər nəticəsində təyin edilmiş məqsədlər üçün istifadəyə tamamilə yararsız olan metal məmulatları daxil olmaqla) ixracına tətbiq olunan gömrük rüsumlarının artırılmasını və (və ya) müəyyən edilməsini üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan ixrac gömrük rüsumlarının ödənilməsindən yayınmanın qarşısının alınması üçün metal qırıntı və tullantılarının emalı nəticəsində əldə olunan məmulatlar üzrə ixrac gömrük rüsumlarının müəyyən edilməsini və (və ya) mövcud ixrac gömrük rüsumlarının optimallaşdırılmasını dörd ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi metallurgiya sənayesi müəssisələrinin qara və əlvan metal qırıntı və tullantı xammalına olan ehtiyacının ödənilməsi ilə bağlı, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görülməsinə zərurət yarandığı təqdirdə, təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4.** “Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 227 (Cild I) ləğv edilsin.

**5.** Bu Fərmanın 4-cü hissəsi bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan qara və əlvan metal (qiymətsiz metal) qırıntı və tullantılarının ixracına gömrük rüsumlarının artırılması və (və ya) müəyyən olunması barədə normativ hüquqi akt qüvvəyə mindikdən 60 (altmış) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2024-cü il**

# Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

**Hörmətli Vladimir Vladimiroviç!**

Dağıstanda törədilmiş terror aktları nəticəsində dinc vətəndaşların və hüquq-mühafizə orqanlarının əməkdaşlarının həlak olması xəbəri məni dərindən sarsıtdı.

Bu qanlı cinayətləri qətiyyətlə pisləyir, terrorizmin bütün forma və təzahürləri ilə mübarizəni dəstəkləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, bütün zərərçəkənlərin tezliklə şəfa tapmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2024-cü il**

# Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri cənab Sergey Məlikova

**Hörmətli Sergey Alimoviç!**

Dərbənddə və Mahaçqalada törədilmiş və çoxsaylı insan tələfatı ilə nəticələnən terror aktları barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itkinin kədərini bölüşərək, Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Dağıstan xalqına dərin hüznlə başsağlığı verirəm. Bütün yaralıların tezliklə şəfa tapmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2024-cü il**

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

### 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə

Hacıyev Rauf Vahid oğlu
Yusifov Cavanşir Əmiralı oğlu

### “Tərəqqi” medalı ilə

Abdullayev Əlimərdan Rəcəb oğlu
Alxasov Vahid Feyruz oğlu
Babayev Elturan Ağasəfər oğlu
Babayev Mürvət Sıracəddin oğlu
Cəlil Xoca Nailə Səyyad qızı
Əhmədov Sabir Əhməd oğlu
Əliyev Etibar İsmayıl oğlu
Əliyev Səlaəddin Balağa oğlu
Əliyeva Yeganə İsrafil qızı
Əmənov İlham Lətif oğlu
Əsədov Novruz Yunis oğlu
Hacıyeva Elmira Qənbər qızı
Həsənov İsmayıl Çoban oğlu
Hüseynov Azad Əlibala oğlu
Xəlilova Rəhilə Baxış qızı
İmanov Mehdi Aydın oğlu
Kərimova Şəhla Baxış qızı
Qasımov Adəm Həsən oğlu
Qasımov Osman Məstəli oğlu
Qurbanov Elçin Hüseyn oğlu
Məmmədov Cəlal Mirzağa oğlu
Mirzəyev Əziz Mirzəağa oğlu
Musayev Səid Əhəd oğlu
Müslümov Fazil Ağaqulu oğlu
Nəcəfov Etibar Əli oğlu
Osmanova Ətayə Kərim qızı
Pənahov Şəmsəddin Səlim oğlu
Rəhimova Gülnarə Yusif qızı
Səfərov Mahir Oruc oğlu
Səmədzadə Əjdər Elman oğlu
Şabanov Abdulkərim Şaban oğlu
Şahbazi Bəhruz Əli oğlu
Vəliməmmədova Arzu Həmzə qızı
Vəliyev Akif Sozalı oğlu
Zeynalov Əlipaşa Eldar oğlu

### “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə

Abaszadə Səidə Rizvan qızı
Abbasəliyev Hüseynqulu Murtuza oğlu
Abbasov Şahin Nazim oğlu
Abbasova Nuranə Qulam qızı
Abbaszadə Qəzənfər Aydın oğlu
Abdullayev Hikmət Şamil oğlu
Abdullayev İbrahim Fərrux oğlu
Abdullayeva Şölə Tofiq qızı
Ağalarbəyli Nuranə Məhərrəm qızı
Ağamuradova Şamama Kamil qızı
Ağayev Namiq Ataxan oğlu
Ağayev Rüfət Surxay oğlu
Ağazadə Afaq Məzahir qızı
Alıyeva Ayna Xudat qızı
Alqayev İlqar Yusif oğlu
Alşanlı Aytən Suddar qızı
Aşurova Dərya Zakir qızı
Babayev Nazim Məhərrəm oğlu
Babayev Zamiq Nurəli oğlu
Bağırov Tahir Cahangir oğlu
Bağırova Fatma Fərrux qızı
Bayramov Anar Məmməd oğlu
Bayramov Yusif Valeh oğlu
Bədəlov Ataxan Əkbər oğlu
Bədirxanov Zamin Ədalət oğlu
Caniyev Səbuhi Fəxrəddin oğlu
Cəfərov İsmayıl Həmid oğlu
Cəfərov Ziya Mirzəbala oğlu
Cəlilov Mustafa Məcid oğlu
Cəlilov Ramin Ramiz oğlu
Çələbizadə Lalə Vaqif qızı
Dəmirçiyeva Sona Nəsib qızı
Eyvazov Emin Rafail oğlu
Əhmədli Yusif Elçin oğlu
Əhmədov Süleyman Zahid oğlu
Əhmədov Vüqar İlyas oğlu
Ələkbərov Fərhad İslam oğlu
Əlili Amil Ağaismayıl oğlu
Əliyev Azad İbrahim oğlu
Əliyev Babək Əbülfət oğlu
Əliyev Cabir Həsən oğlu
Əliyev Cavanşir Sərdar oğlu
Əliyev Elxan Fərrux oğlu
Əliyev Rauf Nurulla oğlu
Əliyev Şəhriyar Yusif oğlu
Əliyev Tural Rauf oğlu
Əliyev Vəfadar Fariz oğlu
Əliyeva Elnarə Yaşar qızı
Əliyeva Fatimə Əsədulla qızı
Əliyeva Gülnarə Şahvələd qızı
Əlizadə Hüsaməddin Əbülfət oğlu
Əlizadə Tural Azər oğlu
Əmirov Elşən Həsənağa oğlu
Əsgərov Mübariz Səhrab oğlu
Əsgərova Şəkibə Əmirəhməd qızı
Əzimova Kəmalə Mustafa qızı
Əzizli Elçin İmran oğlu
Feyzullayev Sənan Nadir oğlu
Hacıyev Nəsir Fazil oğlu
Hacıyeva Sevinc Məmməd qızı
Hacızadə Anar İlham oğlu
Həmidov Elşad İntiqam oğlu
Həmidov Əhməd Ənvər oğlu
Həmidova Aynur Eldar qızı
Hənifəyev Elşən Oktay oğlu
Həsənova Nəzrin Tərlan qızı
Hüseynəliyev Kazım Yaşar oğlu
Hüseynli Yaşar Şamil oğlu
Hüseynov Arzu Lətif oğlu
Hüseynov Emil Elman oğlu
Hüseynov Hafiz Ədalət oğlu
Hüseynov Hüseyn Əmrah oğlu
Hüseynov Xoca Rafiq oğlu
Hüseynova Ülkər Sahib qızı
Xankişiyeva Emma Məhəmməd Nəbi qızı
Xəlilov Anar Əhməd oğlu
Xudiyev Ceyhun Vaqif oğlu
İbrahimli Pərviz Oqtay oğlu
İbrahimov Şahsoltan Yusif oğlu
İmanov Məhəmməd Məhəbbət oğlu
İsgəndərov Rasim Tofiq oğlu
İsmayılov Asif Əlif oğlu
İsmayılov Elman Ömər oğlu
İsmayılov Tərlan Nazim oğlu
İsmayılov Tural Vaqif oğlu
İsmayılov Vəkil Eldar oğlu
İsmayılova Fəzilə Həsənqulu qızı
İsmayılova Nigar Rabil qızı
İsmayılzadə Fuad Kamal oğlu
Kərimov Əli Fikrət oğlu
Kərimov Füzuli Təvəkgül oğlu
Kərimov Rüfət Sədrəddin oğlu
Kərimov Samir Elmi oğlu
Kərimov Söhrab Məhərrəm oğlu
Qarayev Cəmil Azər oğlu
Qasımov Ceyhun Əli oğlu
Qasımov Mahir Hüseyn oğlu
Qazaxov Əli Bədrəddin oğlu
Qəhrəmanov Elnur Əhliman oğlu
Qəhrəmanov Vasif Vaqif oğlu
Qəhrəmanova Almaz Oruc qızı
Qəmbərova Ceyran Sətdər qızı
Quliyev Emil Soltan oğlu
Quliyev Nurəddin Süleyman oğlu
Quliyev Ramiz Səmərxan oğlu
Quliyeva Cəmilə Sabit qızı
Quliyeva Natiqə Elçin qızı
Quluzadə-Verdiyeva Aytəkin Yusif qızı
Qumuxov Elsevər Əsgər oğlu
Qurbanov Anar Famil oğlu
Qurbanov Cavanşir Məmməd oğlu
Qurbanov Xəqani Sayad oğlu
Qurbanov Şahhüseyn İmamqulu oğlu
Lətifova Esmira Nazim qızı
Mamedov Abid Şaban oğlu
Mansurova Qərənfil İsrayıl qızı
Mehdiyev İlham Məmmədxan oğlu
Mehdiyev Tehran Musa oğlu
Mehraliyev Rövşən Ağabba oğlu
Mehtiyev Babək Rasim oğlu
Məcidova Gülər Tahir qızı
Məmmədov Azad Tahir oğlu
Məmmədov Azər Adil oğlu
Məmmədov Bəxtiyar Elman oğlu
Məmmədov Xəyal Asif oğlu
Məmmədov Mehman Rza oğlu
Məmmədov Orxan Məhəmməd oğlu
Məmmədov Rza Məmməd oğlu
Məmmədova Esmira Vaqif qızı
Məmmədova Şamama Ələmməd qızı
Məmmədova Vəfa İbrahim qızı
Məmmədrəhimov Azər Şahverdi oğlu
Mikayılova Vüsalə Mübariz qızı
Mirzəhmədova İradə Xoca qızı
Muxtarov Anar Ramiz oğlu
Muradov Ceyhun Nizami oğlu
Muradova Gülsabah Heybət qızı
Mustafayev Rasim Yaqub oğlu
Nəbiyev Rəhman Qoca oğlu
Nəcəfova Zülfiyyə Zöhrab qızı
Nəsibov Emin Səfyar oğlu
Nəsirov Elnur Nəsir oğlu
Novruzov Elçin Səfəralı oğlu
Nurəliyeva Mənzərxanım Fikrət qızı
Nuriyev Seymur Malik oğlu
Orucov Elmar Ömər oğlu
Paşayev Elman Faxrəddin oğlu
Pirverdiyev Mübariz Ramiz oğlu
Rəcəbov Elçin Həsən oğlu
Rəhimli Fəxri Kəlbi oğlu
Rəsulov Anar Mənsur oğlu
Rəşidov Mürşüd Fəxrəddin oğlu
Rumzadə Rəşid Faiq oğlu
Rüstəmov Məmməd Vaqif oğlu
Rüstəmov Vitali Baxış oğlu
Rzayev Anar Məmməd oğlu
Rzayev Orxan Vəli oğlu
Rzayev Yaşar Əziz oğlu
Sadıqova Rəna Gündüzovna
Sarıkişiyev Sərvər Vaqif oğlu
Seyfullayev Məhəmmədəli Seyfulla oğlu
Seyidova Günel Miryusif qızı
Səfərova Nuranə Sabir qızı
Szorg-Eminova Sərvinaz Şahin qızı
Tağıyev Anar Əflan oğlu
Tağıyev Əcəmi Sabir oğlu
Tağıyeva Aynurə Natiq qızı
Talıbzadə Təyyar Vasif oğlu
Usubəliyev Asif Adil oğlu
Vahidov Vahid Habil oğlu
Vəliyev Vüqar Yusif oğlu
Yusifov Rəşid İsmayıl oğlu
Yusif-zadə Tamerlan Namiq oğlu
Zamanov Kazım Həsən oğlu
Zamanova Aynurə Fəqani qızı
Zamanova Leyla Zaman qızı
Zülfüqarov Asim Asəf oğlu.

**2.** Dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə “Əməkdar dövlət qulluqçusu” fəxri adı verilsin:

Babayeva Ülkər Əskər qızı
Dadaşov Mehdi Tələt oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2024-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2024-cü ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | **1** |
| **Baş nazirin müavini**<br>**Əhmədov Əli Cavad oğlu** | **2** |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | **3** |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | **4** |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Əmiraslanov Azər Kamal oğlu** | **5** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | **31** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | **9,23** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | **10,24** |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | **11,25** |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | **12** |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | **15,26** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | **16** |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | **17** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | **18,30** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | **19,29** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | **8,22** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 305** **Bakı şəhəri 20 iyun 2024-cü il**

***“Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası”nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Müəyyən edilsin ki, Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək “Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulması Qaydası”nda həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

**3.** “İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 275 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1009 (Cild I) ləğv edilsin.

**4.** Bu Qərar “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 3-cü hissəsində nəzərdə tutulmuş tariflərlə eyni gündə qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 306** **Bakı şəhəri 20 iyun 2024-cü il**

***“Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 500 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1601 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin Siyahısı” yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Paşinyanın “yaşam ideologiyası”

## Erməni baş nazirin dilə gətirdiyi reallıqlar

**Ermənistanın baş naziri Nikol Paşinyan açıqlamarı ilə erməni cəmiyyətinin başıpozuq kəsiminin əsəbini korlamaqda davam edir. Əslində, onun qeyd etdiyi məqamları heç də adi məsələ saymaq olmaz. Nikol bir çox hallarda reallıqları dilə gətirir. Reallıqlar və həqiqətlər isə bir qayda olaraq ağır və acı olur.**

Əlbəttə, baş nazirin rəhbərlik etdiyi “Vətəndaş sazişi” partiyasının toplantısında söylədiyi fikirləri həqiqət yüklü mesajlar kimi dəyərləndirmək niyyətindən uzağıq. Xüsusən də bu fikri: “Azərbaycan deyir ki, “siz məni 30 il yaşamağa qoymadınız, mən də sizin yaşamağınıza imkan verməyəcəm” və bu, bizim öhdəsindən gəlməli olduğumuz ən böyük problemdir”.

Əslində, Paşinyan ikibaşlı danışır. Azərbaycan heç də Ermənistandan yerinə yetirilməsi mümkünsüz olan şeyləri tələb etmir. Ölkəmiz İrəvandan 44 günlük müharibə məğlubu kimi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərin icrasını tələb edir və haqlıdır. Lakin Ermənistan rəhbərliyi hər hərəkəti ilə çalışır ki, buna qarşı çıxsın. Konkret olaraq, Naxçıvana maneəsiz quru yolu vermək istəmir, məsələni ərazi bütövlüyü və suverenlik məntiqi ilə əsaslandırır, siyasi manipulyasiyaya əl atır.

Nikolun, belə demək mümkünsə, ikibaşlı məntiqində başlıca məqam ondan ibarətdir ki, o, haqqında söz açdığımız konkretlik üzərində dayanmır, mövzunu Azərbaycanın qeyri-konstruktivliyi kontekstində gündəmə gətirir. “Rahat yaşamağa imkan verməmək” deyimi həm bunu söyləməkdir, həm də sığortadır. Ən əsası isə bu, bəlkə də müəyyən subliminal mesajdır. Yəni, Bakının, guya, maksimuma kökləndiyini vurğulayan mesaj. Başqa sözlə desək, əgər ölkəmizin tələblərini yerinə yetirmək qaçılmaza çevrilsə, o zaman rəsmi İrəvan bildirəcək ki, Azərbaycan 30 il ərzində itirdiyinin konpensasiyasını istəyir. Yenə də qeyd edək ki, məsələ üçtərəfli bəyanatda yer alıb, mövcud istiqamətdə hansısa yenilik yoxdur. Sadəcə olaraq, Paşinyan və komandası özündə iradə və qətiyyət tapıb sənədi icra etməlidir.

Təəssüf ki, Ermənistan rəhbərliyi xaricdəki havadarlarının köməyinə arxalanaraq, sözügedən öhdəliyin icrasından yayınır. Əlbəttə, bu yerdə Paşinyan ona görə haqlıdır ki, öhdəliyi yerinə yetirməmək Ermənistan üçün rahat yaşam olmayacaq. Həm də ona görə ki, ölkə regional kommunikasiyalardan kənarda qalacaq, özünün dalan mahiyyətini saxlayacaq. Belə bir gedişat Ermənistana sərfəlidirsə, o başqa məsələ. Sərfəli deyilsə və rahat yaşamağı üstün tutursa, deməli, Azərbaycanın şərtlərinə həssas yanaşmalıdır.

N.Paşinyanın çıxışındakı daha bir məqama keçid alaq. Əslində, bu məqam da Nikolun əvvəl dilə gətirdiyinin təkrarıdır. Ancaq bir qədər fərqli formada. Beləliklə, erməni baş nazir, faktiki olaraq, şikayətlənir. Ancaq şikayətlənərkən reallıqları dilə gətirir. Nikol beynəlxalq oyunçuların Ermənistanın tərəfində olmadığına dair mesaj verir. Daha doğrusu, o, hazırda beynəlxalq şəraitin ölkəsinin tələblərinin yerinə yetirməsi baxımından qeyri-məqbulluğu məntiqini qabardır.

Digər tərəfdən isə Paşinyan haqqında söz açdığı mövzu fonunda tipik erməni xisləti üçün xarakterik olan mətləbləri qabardır. Məsələn, o, beynəlxalq oyunçuların ermənilərə baxış prizmasına əsaslanaraq, bunları deyir: “Bir dəqiqə gözləyin. Necə yaşamaq istəyirsiniz? Siz yaşayan xalqlardan deyilsiniz, əziyyət çəkən xalqsınız. Əziyyət çəkməlisiniz, mühacirət etməlisiniz, öldürülməlisiniz, döyüşməlisiniz və bütün bunlardan keçib gəlməlisiniz, məndən qurtuluş diləməlisiniz. Mən gəlib sizi xilas etməliyəm ki, sizi öldürməyə davam etsinlər və siz döyüşəsiniz”.



Göründüyü kimi, Paşinyan erməni toplumu üçün xarakterik olan, onu səciyyələndirən cəhətləri yada salır. Eyni zamanda, həmin toplumun tarixin müxtəlif dövrlərindəki yaşam spesifikası ilə bağlı məqamları açıqlayır. Axı ermənilər heç vaxt rahat yaşamağa üstünlük verməyiblər. Elə buna görə də regionda öz məqsədlərini gerçəkləşdirmək niyyəti güdən qüvvələrin alətinə, buyruq quluna çevriliblər. Paşinyan hazırda həmin təfəkkürdən uzaq durulması ilə bağlı çağırış edən ampluasındadır. Onun sözlərindən gəlinən qənaət budur ki, xarici güclərin təhrikinə uyub əbədi olaraq müharibə aqibəti ilə üzləşməkdənsə, yaşam seçmək lazımdır.

Əlbəttə, Paşinyan müəyyən pafosa da üstünlük verir. Məsələn, o, rəhbərlik etdiyi “Vətəndaş sazişi” partiyasının həyat, yəni, yaşam ideologiyasını dövlət ideologiyasına çevirmək məqsədindən söz açır. Özlüyündə son dərəcə mücərrəd məqama toxunur. Əslində isə onu demək istəyir ki, erməni cəmiyyəti reallığı görməyi bacarmalı, mif və əsatirlərdən uzaq dayanmalıdır. Nikol, habelə, gerçəklikləri deyil, əks yolu tutanları da hədəfə alıb. Paşinyanın sözlərinə görə, xalqın belələrinə mesajı odur ki, əbədi döyüşmək yox, sadəcə yaşamaq istəyirlər.

Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Qeyd edək ki, N.Paşinyan artıq neçə dəfədir siyasi-fəlsəfi traktologiyaya baş vurarkən, pozitiv kimi görünən məqamları qabardır. Ancaq məsələ burasındadır ki, hazırda Ermənistandakı gərgin durumun formalaşmasında onun da günahı böyükdür. Baxın, bu adam döyüş, müharibə ritorikası ilə heç nəyə nail olunmayacağını vurğulayır. Halbuki, durumu əvvəldən görməli idi. Məsələn, Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verəndə, eləcə də Şuşada – Cıdır düzündə sərxoş olub yerə səriləndə. Azərbaycan xalqının heysiyyatına toxundu, danışıqları dalana dirədi.

Bəli, Paşinyan məhz o zaman duruma adekvat münasibət ortaya qoymalı idi. O isə sadəcə olaraq, özünü ən yaxşı (pis) erməni kimi göstərməyə girişdi. İlk növbədə, hakimiyyətə gələnədək elan etdiyi prinsiplərdən uzaqlaşdı. Vaxtilə Qarabağı Ermənistan üzərindən asılmış ağır daş kimi görən baş nazir, obrazlı desək, həmin daşı yerdən götürüb erməni xalqının başına vurdu. Yəni, 44 günlük müharibənin başlanmasında bilavasitə baiskara çevrildi. Elə ona görə də bu gün onun səmimiyyətinə inananlar azdır, dilə gətirdiyi reallıqları prinsipial yanaşma deyil, satqınlıq olaraq qiymətləndirənlər ortadan çıxmırlar. Ən pisi isə budur ki, Ermənistan hakimiyyəti siyasətini ortadan çıxmayan revanşist-şovinist kəsimin “məqsəd və mənafelərinə” kökləyir. Ötən dörd ildə Azərbaycanla sülhə gəlməmək də bunun bariz göstəricisidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Hayları “Sezar” da xilas edə bilməyəcək

**(əvvəli 1-ci səhifədə)**

Ekspertlər bu düşüncədədirlər ki, “Sezar” qurğularını alması Ermənistanın Azərbaycanla güc balansını dəyişməyəcək. Çünki ölkəmizin arsenalında bu gün “Sezar” qurğularından daha güclü artilleriya və müdafiə sistemləri var. Bundan başqa bu qurğuları sıradan çıxaracaq potensiala malik pilotsuz uçuş aparatları mövcuddur. Yəni, narahatlığa əsas yoxdur.

**Rusiyalı politoloq, siyasi elmlər doktoru Sergey Boqdan** bildirib ki,



Ermənistan müdafiə nazirinin Parisə səfəri zamanı Fransanın özüyeriyən artilleriya qurğularının alınmasına dair müqavilənin imzalanması revanşist əhval-ruhiyyəni gücləndirə bilər, lakin güc balansını dəyişməyəcək. Ermənistan ordusunun mövcud regional konfiqurasiyada və İrəvanın hazırkı xarici siyasət kursu ilə hər hansı qonşu dövlətlə hərbi toqquşmaya tab gətirmək iqtidarında olub-olmaması sualını qaldırmağın vaxtı çatıb.

Ekspert qeyd edib ki, bu, Paşinyan və Makronun ciddi siyasi addımı kimi görünür. Ancaq material hissə ilə bağlı suallar yaranır: “Əslində, fransızlar indiyə qədər bu özüyeriyən silahı yalnız bir Qərb ölkəsinə – Fransa təsirinin böyük olduğu Belçikaya və daha bir neçə Asiya, ərəb və kiçik Şərqi Avropa dövlətlərinə sata biliblər. Baxmayaraq ki, 2002-ci ildən istehsal olunur. Ancaq Fransa hərbi sənaye kompleksinin bu məhsulunu sınaqdan keçirənlərin və rədd edənlərin siyahısı heyrətləndiricidir – Norveçdən Kolumbiyaya, Böyük Britaniyadan Hindistana qədər və sair. Paris Ukraynadakı müharibə sayəsində bu sistemi inkişaf etdirməyə ümid edir. Xüsusən bu sistemlər istəmək xarici dövlətlərə Kiyevə ucuz hədiyyələr verməyə imkan verir: Danimarka artıq bu özüyeriyən silahları alıb Ukraynaya verib”.

Analitik bildirib ki, Ermənistan həqiqətən də silahlanır. Ordu və silahlanma xərclərini 2022-ci ildəki, təxminən, 700-800 milyon dollardan bu il 1,4-1,5 milyard dollara qədər artırıb. Bununla belə, erməni analitiklərin özlərinin də etiraf etdiyi kimi, avadanlıqların böyük hissəsi Hindistandan alınır, Nyu-Dehli ilə müqavilələrin ümumi həcmi artıq bir milyard dollara yaxındır. İndi Paşinyan fransızlardan – lakin bazarda şübhəli reputasiyaya malik olan avadanlıqların tədarükünün başlanmasına nail ola bilib.

S.Boqdan hesab edir ki, bu cür satınalmaların strateji əhəmiyyəti onların regionda sabitliyi pozmaq qabiliyyəti ilə eyni deyil. Onlar revanşizm alovuna benzin tökəcəklər, ancaq Ermənistanın heç bir qonşu ölkənin ordusuna müqavimət göstərmək şansını artırmayacaq. Əksinə, bu cür hipotetik toqquşmaları daha qanlı edəcəklər.

Ekspert qeyd edib ki, Ermənistan son illərdə bütün “strateji dərinliyini” itirib: “Bu fikirlər zəncirini davam etdirərək bildirməyə dəyər ki, yeni strateji reallıqda Ermənistan tərəfi heç bir hərbi toqquşmaya tab gətirə bilməz. Onun üçün təhlükəsizliyə aparan yeganə yol Azərbaycan və Türkiyə ilə sülh və münasibətlərin normallaşmasıdır. Yeri gəlmişkən, buna misal olaraq ilk erməni burjua respublikasının yüz il əvvəlki tarixini göstərmək olar. Axı, onun da oxşar strateji parametrləri var idi, lakin qonşuları ilə razılığa gəlməkdən inadla imtina etdi. Bu, onu əvvəlcə sonsuz fəlakətlərə, sonra isə fəlakətli sonluğa apardı. O vaxtkı erməni liderləri hesab edirdilər ki, Antanta onlara həmişə kömək edəcəksə, Azərbaycan və ya Türkiyə onlara nəyə lazımdır. Yeri gəlmişkən, Antantada da baş rolu Fransa oynayırdı...”

Mövzu üzrə “XQ”-nin suallarını cavablandıran **Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** isə



bildirdi ki, son vaxtlar Ermənistanın silahlandırılması prosesi sürətlənib. Onun sözlərinə görə, digər tərəfdən silahlandırma nümayişkəranə şəkildə həyata keçirilir. Prosesin siyasi tərəfi hərbi tərəfdən daha çoxdur. Bununla Ermənistanın Avropa ölkələri arasında, necə deyərlər, siyasi çəkisinin ağır olduğunu göstərmək istəyirlər. Məsələ Azərbaycanın diqqət mərkəzində olmalıdır. Bu da səbəbsiz deyil. Ən böyük səbəb Ermənistan və Azərbaycan arasında hələ də sülh müqaviləsinin imzalanmaması, müharibə şəraitində olmağımızdır. Atəşkəs rejimi hələ müharibənin bitməsi demək deyil.

Hərbi ekspert qeyd etdi ki, iki ölkə arasında hələlik sərhədin 12 km-lik hissəsi delimitasiya və demarkasiya olunub. Qalan hissə şərti sərhəd sayılır. Şərti sərhəd sayıldığı üçün həm qarşı tərəf, həm də biz sərhəddə yox, mövqelərdə, səngərlərdə dayanmışıq: “Biz müharibə şəraitində olduğumuz üçün hazırda Ermənistana gətirilən istənilən silah-sursat, hərbi texnika Azərbaycan üçün legitim hərbi hədəf sayıla bilər. Buna görə də düşünürəm ki, Ermənistanın hansısa formada silahlandırılması Azərbaycanın nəzarəti, diqqəti altında olmalıdır. Əlbəttə, Azərbaycan dövləti çox əsaslı, haqlı olaraq və hərbi yanaşmalardan irəli gələrək bu silahlandırmanın qarşısını almaq üçün müəyyən addımlar atmaqdadır. Hələlik bu addımlar diplomatiya sahəsində atılır. Ancaq əgər ölkəmizə qarşı hansısa təhlükə yaranarsa, hətta üçüncü ölkələrin ərazisində də bu təhlükənin qarşısını almaq üçün real tədbirlər görməyə beynəlxalq hüquq normaları imkan verir. Bu gün də Azərbaycanla müharibə şəraitində olduğu üçün Ermənistana böyük və ya kiçik, zəif, yaxud güclü silahların verilməsi ölkəmizə təhlükə mənbəyidir”.



Özüyeriyən “Sezar” artilleriya qurğularının xarakteristikasına gəldikdə isə Ş.Ramaldanov bildirdi ki, ümumiyyətlə, Fransa silahları silah bazarında o qədər də tələb olunan silahlar sayılmır. “Sezar”a gəldikdə isə onun uzunluğu 18 metr, ekipajı 4-5 nəfərdir. Mərminin kalibri 155 millimetr, vuruş məsafəsi adi mərmilərlə 40 km, reaktiv mərmilərlə isə 55 km-dir. Fransanın zirehli maşınları kimi özüyeriyən artilleriya haubitsası da daha çox düzənlik ərazilərdə istifadə üçün istehsal olunub. Çünki Fransanın koloniyaları Afrikada yerləşdiyi və oralar daha çox düzənlik ərazi olduğu üçün Fransa dağlıq ərazilərdə döyüş aparmağa yararlı silah istehsalında o qədər də maraqlı deyil. “Bastion” zirehli texnikası kimi “Sezar” haubitsalarının da Ukraynada gedən döyüşlərdə intensiv istifadəsinə dair məlumatlar yoxdur.

“Sezar”ın bir ədədinin 5 milyon avro olduğunu qeyd edən Ş.Ramaldanov bunun prinsip etibarilə baha olduğunu vurğuladı. Halbuki, silah bazarında eyni tipli özüyeriyən haubitsaları, demək olar ki, iki dəfə ucuz əldə etmək mümkündür: “Düzdür, bu özüyeriyən haubitsaların dağlıq şəraitdə hərəkət etmək imkanları məhdud olsa da, atəş açdıqda peykdən idarə olunduğu zaman hədəfləri dəqiq vura bilir. Buna görə “Sezar” dəqiq vuran haubitsalar sırasındadır. Ümumiyyətlə, “Sezar” haubitsaların orta nəslinə aid silahdır. 2002-ci ildən etibarən Fransa ordusunun arsenalına daxil edilib”.

Hazırda İrəvanda yaşayan ABŞ-nin Stenford Universitetinin siyasi elmlər üzrə doktoru, professor Artur Xaçikyan Ermənistan rəhbərliyinin xarici siyasət arenasında absurd hərəkətlərinin xaosa gətirib çıxardığı düşüncəsindədir. O qeyd edib ki, ölkəsinin xarici siyasəti hələ də aydın deyil. İrəvanın Rusiyadan ayrılmaq istədiyi bildirilir, ancaq ayrılmır. Sonra Ermənistanın Qərbə doğru getdiyi bildirilir, amma nəticədə bu da baş vermir.

Xaçikyanın fikrincə, xarici siyasət uşaq nağılları üzərində deyil, imkanların ayıq qiymətləndirilməsi və praqmatizm üzərində qurulmalıdır. Nümunə kimi ekspert İrəvanın Fransanın “Sezar” artilleriya qurğularını əldə etməsi ehtimalını göstərib: “Təbii ki, bu, Fransadan alınan “Bastion”lardan qat-qat ciddi texnikadır. Amma sual budur ki, bu qurğular Ermənistana necə çatdırılacaq? Hətta, yararsız “Bastion”ların tədarükü zamanı da problem yaranmışdı. Ankaradan edilən bir zənglə erməni yükləri Gürcüstan limanında bir ay gecikdirilmişdi. Tutaq ki, qurğuları Ermənistana gətirə bilirik, bu qurğuların sursatları necə çatdırılacaq? Hamımız xatırlayırıq ki, Gürcüstan müharibə zamanı bizim üzümüzə sərhədi bağlayıb. Yeni müharibə olacağı təqdirdə bunun baş verməyəcəyinə dair təminatlar haradadır? Bu halda bu parametrlərdən necə istifadə olunacaq?”

Ekspert qeyd edib ki, regionda Ermənistanın mövcudluğunda maraqlı olan yeganə ölkə İrandır və məhz onunla hərbi-texniki əməkdaşlığı artırmaq lazımdır, lakin İrəvan rəhbərliyi bu addımı atmır: “Bununla yanaşı, Ermənistan Rusiya ilə münasibətlərini tamamilə korladı. Bu da Moskva və Bakının yaxınlaşması ilə nəticələndi. Başqa sözlə, ölkənin xarici siyasəti tam fiaskoya uğrayıb. Azərbaycan güclü mövqedən çıxış edir və ardıcıl uğurlar qazanır. Bakının prinsipial mövqeyi Ermənistanı konstruktiv mövqe tutmağa məcbur edir”.

Onu da bildirək ki, Ermənistanın silahlanması ilk hadisə deyil. Nə də sonuncuya oxşamır. Özü də onlar bunu nümayişkarənə şəkildə etməyi xoşlayırlar. Sanki bizə nəyisə sübut etməyə çalışırlar. Bununla ölkəmizi qıcıqlandırmağa çalışdıqları, yoxsa hərbi sahədə paritet yaratmağa cəhd edərək danışıqlarda mövqelərini gücləndirməyə cəhd etdikləri aydın deyil. Bir məqam aydındır: Prezident İlham Əliyevin dediyi kimi, bizə qarşı ciddi təhlükə görsək, ciddi tədbirlər görməli olacağıq. Bizə qarşı hərbi güc nümayiş etdirəndə, bəzən öz qoşunlarını sərhədimizdə cəmləyəndə biz sakit otura bilmərik. Bu, bizim təhlükəsizliyimizdir və narahat olmağa haqqımız var. Ermənistana nə qədər silah göndərilsə də, onların bizə qarşı heç bir şansları yoxdur. İkinci Qarabağ müharibəsi də bunu nümayiş etdirdi.

***Səxavət HƏMİD***
***XQ***

# Pusqudan açılan atəşin kölgəsində gizlənənlər

(əvvəli 1-ci səhifədə)

Keçən həftənin cümə günü KTMT-nin baş katibi İmanqali Tasmaqambetovun dilindən səslənən "Ermənistan bizim müttəfiqimiz olub və tərəfdaşımızdır" fikirlərinə məhz bu konteksdən yanaşmaq daha məntiqi olar. Bu minvalla Rusiya ilə Qərb arasında səngimək bilməyən, əksinə, qanlı qarşıdurma həddinə çatmış münasibətlərin ehtimal olunan qara yelinin Ermənistandan yan keçməyəcəyi şübhəsizdir. Sadəcə, indi İrəvanı pusqudan şərti sərhədin bu tərəfinə atəş açmağa təhrik edənlər sabah onun nəinki arxasında durmayacaqlar, heç həndəvərində də görünməyəcəklər.

* * *

Ermənistanın Kəlbəcər və Naxçıvan istiqamətində atəşkəs rejimini pozması ilə sülh müqaviləsinə maneçilik cəhdlərinin düz mütənasib olduğunu söyləyə bilərik. Həmin cəhdlərə baş vuranların siyasi palitrası fərqli olsa da, niyyət və məqsədləri, demək olar ki, üst-üstə düşür. Daxildəki anti-Paşinyançı qüvvələrin tərkibinə diqqət yetirsək, ilk nəzərə çarpan Ermənistan ordusunun içərisində kök salmış "Qarabağ klanı" olacaq. Onlarla eyni səngəri bölüşən ikinci qüvvə kimi Ermənistanda Şimala tam meyilli, hələ də "bəlkə də qaytardılar" xəyalı ilə yaşayan "beşinci kolon"dur. Onlar birincilərdən fərqli olaraq, həm də Gümrüdəki hərbi bazanın timsalında ciddi dayağa malikdirlər. Yerli ekspertlərdən birinin dediyi kimi, Ermənistan ordusundakı "beşinci kolon"un təmsilçisinin, yaxud "Qarabağ klanı"ndan əlisilahlı birinin sərhədin bu üzünə atəş açması və sonra aradan çıxması nə çətin məsələdir?

Görünən dağa bələdçinin gərək olmadığı kimi, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına da maneçilik törədənlərin başında Fransanın durduğu hamıya məlumdur. Bu günlərdə Fransadan Ermənistana "CAESAR" tipli özüyeriyən artilleriya qurğuları və onlar üçün mərmilərin satışı barədə müqavilənin imzalanması ilə sərhəddə atəşkəsin pozulması arasında paralellər aparmaq tam yerinə düşər. Ortada təsadüfün olmadığı aşkardır. Ən azı, ona görə ki, Yelisey sarayı bu günədək Ermənistana müdafiə xarakterli silahlar göndərirdisə, Paris və İrəvan arasında yeni razılaşmada "CAESAR" markalı hücum silahından bəhs edilir.

"Ermənistan–Azərbaycan sərhədində gərginliyi azaltmaq və atəşkəs pozuntularını aradan qaldırmaq üçün ikitərəfli mexanizm yaradılması təklifi alqışlanmalıdır".

**Bu sözləri Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Tovio Klaar** özünün "X" səhifəsində



yazıb. Aİ-nin Gürcüstandakı monitorinq missiyasının 15 ilə yaxın fəaliyyət göstərdiyini deyən qurum rəsmisi bu sahədə toplanmış təcrübəni tərəflərlə bölüşməyə hazır olduqlarını da diqqətə çatdırıb. Yeri gəlmişkən, Toivo Klaar "Report"a müsahibəsində son aylarda sülh danışıqlarında beynəlxalq iştirakın əvvəlki iki illə müqayisədə daha məhdud olmasına baxmayaraq Ermənistan–Azərbaycan ikitərəfli görüşlərində əldə olunan irəliləyişi məmnunluqla qeyd edib: "Bu yazın son onilliklərdə bölgədə ən sakit dövrlərdən biri olması faktını alqışlamaq lazımdır. Tərəflərin düzgün yolda olduğuna inanıram. Ümid edirəm ki, müsbət irəliləyişlər davam edəcək və tezliklə növbəti konkret razılaşmalar və digər etimad quruculuğu tədbirləri əldə olunacaq. Artıq sülh müqaviləsinin əksər elementləri razılaşdırılıb və fikrimcə, qalan məsələlər də asanlıqla qəbul edilə bilər".

Ermənistan və Azərbaycan arasında COP29 üzrə 2023-cü il 7 dekabr birgə bəyanatı, məhbusların azad edilməsi, eləcə də 1991-ci il Alma-Ata Bəyannaməsinin sərhədlərin delimitasiyası işlərinin əsası kimi əhəmiyyətini bir daha təsdiqləyən 19 aprel 2024-cü il tarixli sərhəd razılaşmasını və sonradan həyata keçirilən delimitasiya və demarkasiya kimi müsbət irəliləyişləri təqdir etdiklərini söyləyən Aİ diplomatı bütün bunların çoxdan gözlənilən sülh sazişinin bağlanması üçün



əlverişli zəmin yaratdığını və tərəflərin indi siyasi iradə göstərərək, bu addımı atmağa həmişəkindən daha yaxın olduqlarını önə çəkib: "Bütövlükdə, sülh həm dövlətlərin, həm də sadə ermənilərin və azərbaycanlıların qarşılıqlı əlaqə və əməkdaşlıqdan bəhrələnə biləcəyi yeni mühit yaradacaq. Bu isə onların bir-birini yenidən tanımasına imkan verəcək, Azərbaycan və Ermənistanda gələcək nəsillərin rifahı üçün düşmənçilik səhifəsini birdəfəlik çevirməyə kömək edəcək".

T.Klaarın bu nikbin açıqlamasına yalnız onu əlavə etməyə ehtiyac duyuruq ki, təki onun bu istəyini Aİ üzvü olan digər ölkələr də bölüşsünlər.

* * *

Otuz il müharibə şəraitində yaşamış iki xalq arasında yaxın əməkdaşlıqdan, davamlı sülhdən bəhs edən və onun tezliklə imzalanmasına çalışan kollektiv Qərb bu yanaşmanın həm də Paşinyanın hərəkətlərində öz inikasını tapmasına nail olmalıdır. Sülhə aparan yolda isə hələ İrəvanın atmalı olduğu zəruri addımlar var. Bunu Azərbaycan Prezidenti açıq mətnlə söyləyib: "Ermənistanın konstitusiyası, normativ-hüquqi aktları dəyişdirilməlidir! Yalnız bundan sonra sülh sazişininin imzalanmasından danışmaq olar".

Maraqlıdır ki, indi sülh müqaviləsini "dərhal imzalanması" üçün çağırışlar edən həmin ABŞ Dövlət Departamenti bu ilin aprelinə qədər səsini başqa notlara kökləmişdi. Niyə bir il əvvəl Paşinyan komandası Sədərəkdən Kəlbəcərədək şərti sərhəddə atəşkəs rejimini kobud şəkildə, həm də dəfələrlə pozanda Antoni Blinken hayların baş nazirinə zəng edib "Dərhal atəşi saxla!" çağırışını etmirdi? Nədən Zəngəzur dəhlizinin açılması, Azərbaycanın işğal altındakı kəndlərinin azad edilməsi məsələsini qaldırmırdı? Bu gün Azərbaycanın çağırış və təşəbbüslərini, atdığı konkret addımlarını alqışlayanlar bir il əvvəl niyə susurdular?

Artıq beynəlxalq ictimaiyyət Ermənistanın daxilində və xaricində hansı qüvvələrin nə oyunlar qurmaq istədiyini yaxşı görür.

**Bu barədə "XQ"-yə açıqlama verən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** he-



sab edir ki, son günlər atəşkəsin məhz Kəlbəcər istiqamətində pozulmasının arxasında Ermənistandakı revanşist qüvvələrin dayanması ehtimalı yüksəkdir: "Atəşkəs rejimi Naxçıvan istiqamətində pozulanda belə versiyalar səslənirdi ki, bu, Ermənistandakı təxribatçı qüvvələrin Zəngəzur dəhlizinin reallaşması və Kərki kəndinin geri qaytarılması variantının əleyhinə atılmış addımdır. Yəni qarşı tərəf bununla hadisələrin bu istiqamətdə gedişatına mane olmaq istəyirlər. Əslində, atəşkəsin pozulması mexanizmi çox sadədir. Qarabağ klanı və ya digər radikal qüvvələr ordudakı tərəfdarlarından bir qrupuna mesaj göndərir ki, Azərbaycan tərəfə atəş açın. Və ya radikal qüvvələrin nümayəndələrindən bir qrupu maşınla sərhəd kəndlərdən birinə yaxınlaşaraq Azərbaycan ərazisini atəşə tutur. Yəqin xatırlayırsınız, bu ilin fevral ayında qarşı tərəf atəş açaraq bizim sərhədçimizi yaralayanda, baş nazir Nikol Paşinyan bunun təxribat olduğunu anlayaraq orduda bəzi yerdəyişmələr etdi. Ancaq, o, bu prosesi ya sona çatdıra bilmədi, ya sona çatdırmağa risk etmədi. Bütün hallarda atəşkəsin pozulmasının intensiv hal alması gərginliyi artırır, bu isə öz növbəsində, danışıqlar prosesinə mənfi təsir edir".

* * *

Bəli, Ermənistanı yeni hərbi münaqişəyə təhrik etməyə çalışan dövlətlər üçün hayların bundan sonrakı aqibəti sonuncu sırada dayanır. Fəqət, onu da deməliyik ki, bundan sonra Azərbaycan və erməni xalqları müharibə istəmirlər. Doğrudur, Ermənistanda separatçı revanşist qüvvələr var. Fəqət son iki ay ərzində izlədiyimiz "keşiş Qalstanyanın istefa yürüşü" göstərdi ki, erməni xalqı bu qüvvələrə inanmır və onları dəstəkləmir. Əgər belə olmasaydı, Paşinyan çoxdan kürsüsündən devrilmişdi. Onun özü də yaxşı bilir ki, erməni cəmiyyəti Azərbaycanla sülh və əmin-amanlıq şəraitində yaşamaq istədiyi üçün, o, iqtidarını qoruyub saxlayır.

Digər tərəfdən görünən mənzərə isə İrəvanın Cənubi Qafqaz coğrafiyasında gedən qlobal oyunlarda özünə müstəsna dividend qazanmaq istəyidir. Bundan ötrü Paşinyan regionu yenidən qan çanağına döndərməkdən çəkinməyə bilər. Belə cəhdlər mövcud reallığı dəyişmək kimi boş və səmərəsizdir. Avantürist ideyalardan, xam xəyallardan doğan belə cəhdləri edənlər Ermənistan dövlətçiliyinin tamamilə itirilməsi perspektivini gözləri önünə almalıdırlar.

***İmran BƏDİRXANLI***
***XQ***

# Xortdanın İrəvandan "cəhənnəm məktubları"

## Döyüş meydanındakı sarsıdıcı məğlubiyyət və keşişin hoqqaları Hayastanı, həqiqətən, cəhənnəmə çevirib

**Həmin "cəhənnəm"in insanlara göstərdiyi fiziki, mənəvi, psixoloji təsir o dərəcədədir ki, indi artıq bu qədim Azərbaycan şəhərindən Bakıya göndərilən məktublarda nəinki siyasi-diplomatik anlayış, hətta, adi məişət dilində olan məzmun-mündəricə də gözə çarpmır.**

44 günlük İkinci Qarabağ müharibəsindən sonra rəsmi Bakı Ermənistan rəhbərliyinə dəfələrlə, yazılı şəkildə müraciət etmişdi ki, regionda sülhə nail olmaq üçün dərhal danışıqlara başlayaq. İrəvandan aylarla cavab gəlmirdi. Sonra beynəlxalq aləmdə təkləndiyini görən Ermənistan rəhbərliyi danışıqlara razı olduğunu bildirsə də, göndərdiyi məktubların və təkliflərin heç biri anlaşılan deyildi. Bu mövqenin bilərəkdən və ya çaşqınlıqdan ortaya çıxmasının özü də anlaşılmırdı.

Son zamanlar isə İrəvandan daha tez-tez məktublar alırıq. İşğalçı ölkənin baş naziri həmin məktublardan birində deyir ki, Bakıya sərhəddə atəşkəs rejiminin pozulması hallarının araşdırılması məqsədilə ikitərəfli mexanizm yaratmağı təklif etməyə hazıram.

Absurdluğun dərəcəsinə baxın. Əvvəla, atəşkəs Ermənistan tərəfindən pozulur, atəşə məruz qalan Azərbaycan Ordusunun müvafiq qurumlarıdır, atəşkəsin pozulduğunu rəsmi İrəvanın çağırışı ilə bu ölkəyə gəlmiş "Avropa missionerləri" də görürlər, kosmosda rabitə peyki olan bütün ölkələr də. Belə bir vəziyyətdə Azərbaycan hansı mexanizmin yaradılmasına razılaşar? Təbii ki, razılaşmarıq. Çünki biz konkret əməlin tərəfdarıyıq və qarşı tərəfdən də bunu tələb edirik.

İkinci, bu məktub onu göstərir ki, Nikol Paşinyan öz ölkəsinin ordusunda möhkəmlənmiş quldur, terrorçu və təxribatçıların öhdəsindən gəlmək üçün Azərbaycandan kömək istəyir. Biz o köməyi təqdim etməyəcəyik. Nəyimizə lazımdır, "ara"?

Odur ki, biz istənilən insidentə atəş açılan postu dağıtmaqla və terrorçunu neytrallaşdırmaqla cavab verəcəyik və veririk. Bizim tələbimiz ondan ibarətdir ki, Paşinyan Azərbaycan əsgərinə qarşı açılan atəşi müəyyənləşdirmək üçün "ortaq komissiya" yaratmaq əvəzinə, müdafiə nazirindən həmin istiqamətdə nələrin baş verdiyi barədə hesabat tələb etməlidir. Yoxsa atəşin açıldığı post zərbə ilə dağıdılacaq. Hər halda, İrəvanın bu məzmunlu, daha doğrusu, məzmunsuz məktubları çox olduğu kimi, bizim onlara tövsiyələrimiz də az deyil. Fikrimizcə, qulaq assalar, uduzmazlar.



... İrəvandan gələn məktubları nəzərdən keçirərkən böyük ədibimiz Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" əsəri yadıma düşür. Orta məktəbdəki ədəbiyyat müəllimimiz, rəhmətlik Adilə xanım deyirdi ki, Əbdürrəhim bəy "Xortdanın cəhənnəm məktubları" povestində həyatda görüb müşahidə etdiyi mənfi tipləri "cəhənnəm" adlanan məkanda cəmləşdirərək ideya və mövzu baxımından zəngin bir əsər yaratmışdır.

Diqqət yetirin, biz də həyatda gördüyümüz erməni vəhşiliklərinin, Xocalı soyqırımının, otuz il müddətində ərazilərimizin 20 faizinin bütün var-dövlətinin talanmasının, altmış beş məscidimizin və yüzlərlə maddi-mədəni, tarixi abidəmizin məhv edilməsinin baiskarlarının, daha doğrusu, müharibə cinayətkarlarının cəhənnəm əzabı gördüyünün şahidiyik.

Yaxud, bəzi məlumatlarda oxuyuruq ki, "Xortdanın cəhənnəm məktubları"ndakı tənqidi mətləblərdən biri də çarizmin müstəmləkəçilik siyasətinin kəskin ifşasıdır. Əsər boyu müxtəlif ictimai-siyasi məsələlərlə əlaqədar olaraq ədib cəmiyyətdəki ədalətsizliyin, rəzalətin əsas dayağı kimi çarizmin fitnəkar siyasətini, habelə onun yerli nümayəndələrini kəskin ifşa edir. Həmin məntiqi Ermənistana tətbiq edəndə isə qulağımıza Rusiya televiziyalarından birində çıxış edən Dövlət Duması üzvünün səsi gəlir: "Ermənistanda unutmasınlar ki, Moskva onları əsrlər boyu müdafiə edib, dəstəkləyib və Qafqazda dövlət qurmalarına şərait yaradıb".

Başqa yerdə oxuyuruq: "Haqverdiyev "Xortdanın cəhənnəm məktubları"nda bu dünyada yaşayan mənfi tiplərlə o biri dünyada yaşayan mənfi tiplər arasında o qədər də böyük fərq görmür. Sadəcə olaraq, o biri dünya, yəni cəhənnəm real dünyadakı mənfi tip insanların sonuncu aqibət məkanıdır".

Fikrimizcə, yüz illər boyu Azərbaycan torpaqlarında ( oxu – bu dünyada) yaşayan ermənilərlə o biri dünyada – yeni qurmaq istədikləri ərazidə yaşayan ermənilərin də elə bir ciddi fərqi yoxdur. Sadəcə, indi sərgilədikləri mövqe onlar üçün sonuncu məkan effektini yarada bilər.

Əsərdə Xortdan Tiflisdən Şuşaya gəlincə yetimlərin malını yeyir, müxtəlif dələduzluq və rəzalətlər törədir. Bu cümləni oxuyanda Mərdəkandakı "Günəşli" sanatoriyasını yanında, tamamilə şəraitsiz bir yerdə yaşayan şuşalı qadının vəziyyəti də yadıma düşdü, Nikol Paşinyanın şərab içib Cıdır düzündə yatması, ertəsi günü orada "yallı" oynaması da. Allah Əbdürrəhim bəyə rəhmət eləsin.

...Və nəhayət, ədib povestin baş qəhrəmanı olan Xortdanı mənfi obraz kimi də təqdim etmir, müsbət qəhrəman kimi də. Ah, necə də Paşinyanın boyuna biçilmiş obrazdır? Əsərdə Xortdan – qorxunc görünüşlü mifik vücuddur. Burada isə vəziyyət bir az fərqlidir. Çünki Nikol Paşinyan erməni ideoloqlarının yüz illər boyu yaratdıqları miflərdən qaçmağa, yaxasını qurtarmağa çalışır. Görünür, Azərbaycan Ordusu, siyasət və diplomatiyamız ona başa salıb ki, daha miflərlə yaşamaq vaxtı deyil. Yeni reallıqları qəbul etmək, müharibə səhifəsini çevirmək, xalqlara rifah və firavanlıq gətirmək lazımdır.

Bunun isə bircə yolu var: Ermənilik xəstəliyindən qurtulmaq və Bakıya xortdancasına deyil, insan kimi məktublar yazmaq.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***



# Xankəndi Prokurorluğunun açılışı

**İyunun 24-də Xankəndi Şəhər Rokurorluğunun inzibati binası istifadəyə verilib.**

Baş prokuror Kamran Əliyev mərasimdə bildirib ki, ölkə Prezidentinin 24 may 2024-cü il tarixli Sərəncamı ilə Xankəndi Şəhər Prokurorluğu təsis edilib və qısa müddətdə qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi, habelə digər maddi-texniki təminatı məsələləri həllini tapıb. O, prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən də söz açıb.

İnzibati binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

***

**Həmin gün Xankəndidə Baş Prokurorluğun təşkilatçılığı ilə "Ətraf mühitin mühafizəsində maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Baş prokuror Kamran Əliyev qeyd edib ki, COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişikliklərinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov, ekologiya və təbii sərvətlər nazirinin müavini xanım Umayra Tağıyeva, Milli Məclisinin deputatı Kamal Cəfərov, Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Ankara Universitetinin hüquq fakültəsinin dekanı Muharrem Özen, Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin sədri Samir İdayətov və digər çıxış edənlər müzakirə edilən mövzu ilə bağlı mülahizə və təkliflərini söyləyiblər.




Konfransın sonunda, Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında ECOLEAD layihəsinə dair Anlaşma Memorandumu imzalanıb və media nümayəndələrinin sualları cavablandırılıb.

**XQ**

# Postmüharibə dövründə liderlik

**IV MƏQALƏ**

**Kim olursan ol, ancaq ən yaxşısı ol.**

**Avraam Linkoln**



## Uğurlu liderliyin şərtləri

Azərbaycan Prezidenti İlham Əliyevin lider kimi yüksək şəxsi keyfiyyətləri, əlbəttə, dövlətin qazandığı bütün uğurların təməlində duran gerçəklikdir. XXI əsrdə müstəqil dövlətin lideri ölkənin real vəziyyətini dəqiqliklə bilməlidir. Bunun üçün tarixi mərhələnin əsas xüsusiyyətlərini adekvat qiymətləndirməlidir. Əgər söhbət postmüharibə dövründən gedirsə, liderin real vəziyyəti qiymətləndirməsi daha çətin və çoxməchullu riyazi tənlik kimi bir neçə həll ssenarisi ola biləcək məsələyə çevrilir.

Özlüyündə Azərbaycanla bağlı postmüharibə dövrü ikili məna daşıyır. Çünki bir tərəfdən, Cənubi Qafqazda postmüharibə dövrünün memarı Azərbaycan Respublikası, ilk növbədə, onun Prezidentidir. Burada "postmüharibə" termini II Qarabağ savaşından sonra meydana gələn yeni regional parametrləri ifadə edir. II Qarabağ savaşını zəfərlə başa çatdıran isə Azərbaycan dövlətidir. Deməli, yeni regional vəziyyətin faktiki yaradıcısı Azərbaycandır. Azərbaycana rəhbərlik edən isə Prezident İlham Əliyevdir. Məhz İlham Əliyevin siyasi diaqnozları, təhlilləri və dəqiq proqnozları zəfəri təmin etmişdir. Belə alınır ki, Azərbaycan regionda postmüharibə dövrünün əsas geosiyasi faktorlarını yaradan və onları koordinasiya edən gücdür.

Bununla yanaşı, yeni dövrün digər xarakterik xüsusiyyəti də vardır. Məsələ onunla bağlıdır ki, Azərbaycanın bu möhtəşəm zəfərinin nəticələri dünyanın bir sıra böyük güclərinin buradakı fəallığına da yeni dinamika vermişdir. Konkret olaraq, ABŞ, Avropa İttifaqının güclü dövlətləri (əsasən, Fransa), Rusiya, İran və arxa planda Çin Cənubi Qafqazda bir sıra istiqamətlərdə fəallıqlarını yeni səviyyəyə yüksəltmişlər. Belə bir vəziyyət adi hal deyil (yəni siyasi parametrlərinə görə, trivial deyildir). Burada onların həm öz şəxsi maraqlarını təmin etmək cəhdləri, həm də bir-biri ilə amansız rəqabəti özünü göstərir. Digər tərəfdən, həmin güclərin hər biri Ermənistandan öz mənafeləri naminə istifadə etmək xəttindən çəkinmir.

Bununla da regional miqyasda bir neçə geosiyasi xəttin kəsişdiyi mürəkkəb və qeyri-müəyyən mənzərə yaranır. Azərbaycan üçün əhəmiyyətli olanı odur ki, böyük güclərin fəaliyyəti heç də bütün hallarda ədalətli və yeni reallığı nəzərə almaqla özünü göstərmir. Əksinə, onların sırasında Azərbaycanın uğurlarının nəticələrini puç etmək cəhdləri az olmur.

Liderlik baxımından bu cür şərtlər daxilində təbii bir sual meydana çıxır: Azərbaycanda hansı liderlik nümunəsi postmüharibə dövründə uğurlu ola bilər?

## Qeyri-standart geosiyasi vəziyyətdə təcrübə şansı

Siyasi-nəzəri baxımından problemi qəlizləşdirən faktorlardan biri dünyada hazırkı geosiyasi dinamikanı adekvat anlamağa istiqamət verə biləcək təcrübənin olmamasıdır! Bu, ümumiyyətlə, siyasi liderlikdə təcrübəsizlik deyildir, əksinə, ən zəngin təcrübəyə malik liderlərin belə, müasir geosiyasi şərtlərdə fəaliyyət təcrübəsinin olmamasıdır! Lakin burada Azərbaycan üçün çox ciddi bir təcrübə şansı mövcuddur. Bu tezisin politoloji anlamı mütləq verilməlidir.

Biz keçən əsrin 90-cı illərində postsovet məkanında heç bir siyasətçinin müstəqil dövlət quruculuğu sferasında təcrübəsinin olmadığı şəraitdə ulu öndər Heydər Əliyevin həmin təcrübəni eksklüziv olaraq necə yaratdığının fəlsəfəsini nəzərdə tuturuq. Bu, nəzəri qənaət deyildir, əksinə, real faktın dərki və təsdiqidir. Çünki Heydər Əliyev real zamanda Azərbaycanda XX əsrin son onilliyinin mürəkkəb şərtləri daxilində müstəqil dövlət quruculuğunun nəzəri konsepsiyasını hazırladı və onu həyata keçirdi! Bu, müstəqil dövlət quruculuğunda çox dəyərli Azərbaycan təcrübəsidir.

Deməli, hər şeydən öncə, Prezident İlham Əliyevin postmüharibə dövründə uğurlu liderliyin mükəmməl nümunəsini yaratmaq üçün ixtiyarında siyasi varisliyə dayanan olduqca qiymətli təcrübə (və ya nümunə) vardır. Bu baxımdan söhbət müstəqil dövlət quruculuğu təcrübəsinin yeni şərtlər daxilində yeni mərhələdə yaradıcı inkişaf etdirilməsindən getməlidir. Bunun üçün isə dövlət rəhbərinin yüksək liderlik zəkasına malik olması ilkin şərtdir!

Sonra Heydər Əliyevin XX əsrin 90-cı illərində yaratdığı nümunənin başqa bir mühüm cəhətini anlamağımız gərəkdir. Həmin mərhələdə Ulu öndər yeni liderlik nümunəsini çox mürəkkəb və ziddiyyətli geosiyasi vəziyyətdə yaratmışdır. Hətta, o dövrdə Azərbaycana qarşı onunla dost olmaq istəməyən güclü dövlətlər daha sıx birləşmişdilər və hərbi sfera da daxil olmaqla çox fəal surətdə bu dövləti çökdürməyə çalışırdılar (Ermənistana yol açmaq üçün).

Bununla Heydər Əliyevə qarşı sanki "ikiqat geosiyasi maneə zolağı" yaratmışdılar – birinci, daxildə cəmiyyətin hakimiyyətə inamını sarsıtmaq, ikinci, Ermənistanın hərbi uğurlar əldə etməsi üçün beynəlxalq aləmdə Azərbaycan üçün daha dolaşıq və bədbin mənzərə formalaşdırmaq məqsədilə. Bu zaman, Azərbaycanın yanında hətta qardaş Türkiyə belə dayana bilmirdi (səbəblər müxtəlifdir). Faktiki olaraq, Heydər Əliyev təkbaşına həm Azərbaycanı xilas etməli idi, həm də özünə real müttəfiqlər qazanmalı idi! Liderologiya baxımından, bu, dərindən öyrənilməli çox mühüm məsələdir.

Heydər Əliyev Azərbaycanı da xilas etdi, Türkiyəyə də Azərbaycanla real zamanda qardaş və həmfikir dövlət olmalı olduğunu anlatdı ("bir millət, iki dövlət" kəlamının müasir geosiyasi situasiya üçün konkret politolojiləşməsi), həm də çox uğurlu enerji siyasəti ilə Qərbin güclü dairələrinə Avropanın milli təhlükəsizliyinin təmin olunmasının Azərbaycana qarşı səmimi olmaqla sıx bağlılığına inandırdı.

Nəhayət, keçən əsrin 90-cı illərində Heydər Əliyevin qeyri-standart geosiyasi situasiyada yeni liderlik nümunəsi istənilən böhran vəziyyətində milli maraqları gözləmək fəlsəfəsini yaratması ilə bağlıdır. Bu, liderlikdə çox çətin prosesdir. Lakin Ulu öndər xarici siyasətin prioritetlərini və milli ideyanı elə müəyyənləşdirdi və uyğunlaşdırdı ki, onların hər ikisi milli maraqları təmin etməkdə ideya kimi "kəsişdilər"! Nəticədə bu istiqamətlərdə atılan hər bir addım yekunda milli marağa xidmət etdi. Bunun real göstəriciləri müstəqil dövlət quruculuğunun uğurla davam etməsidir. Hələlik postsovet məkanında Azərbaycanın bu təcrübəsini kəsintisiz olaraq təkrarlayan dövlət yoxdur.

## II Qarabağ savaşı çağdaş "təcrübə" kimi

Postmüharibə dövründə uğurlu liderliyin nəzəri və siyasi-dilomatik bazası kimi Heydər Əliyevin yuxarıda vurğuladığımız liderlik özəlliklərinə, faktiki olaraq həmin təcrübənin bəhrələrindən olan II Qarabağ savaşını da əlavə etmək zəruridir. İlham Əliyevin postmüharibə dövründə liderliyinin əsas parametrlərindən biri, bizcə, məhz II Qarabağ savaşının təcrübəsindən ibarətdir.

II Qarabağ müharibəsi Heydər Əliyevin qeyri-standart situasiyada yeni liderlik nümunəsi yaratmaq təcrübəsinin siyasi, hərbi və geosiyasi meydanda sınağı oldu. Bu sınağın başlıca təsdiqi milli ideyanın tam reallaşması ilə bağlıdır. Həmin liderlik nümunəsinin daşıyıcısı və reallaşdırıcısı isə Prezident İlham Əliyevdir. Deməli, İlham Əliyevin postsovet məkanı ölkələri liderlərindən bir üstün cəhəti də qeyri-standart situasiyalarda yeni liderliyin tarixin sınağından keçmiş təcrübəsinə sahib olmasıdır.

Bu təcrübə yeni şərtlər daxilində dövlətə başçı olmaqla liderliyi və Ali Baş Komandanlığı sintez etmənin optimal formulunu müəyyən etməyə əsas yaratmışdır. Hərb meydanında qazanılmış qələbə geosiyasətdə, siyasətdə, iqtisadiyyatda, təhlükəsizlikdə, mədəniyyətdə və multilateral əlaqələri inkişaf etdirməkdə postmüharibə dövründə uğurlu nümunə yaratmağa xüsusi təkan vermişdir.

Burada yeni tarixi mərhələ üçün xarakterik olan yeni qeyri-standart situasiyanın qarşıya çıxması liderlikdə əlavə faktorlar meydana gətirir və məsələyə yaradıcı yanaşmanı tələb edir. Bütün hallarda isə artıq Azərbaycan üçün, ümumiyyətlə, qeyri-standart situasiyalarda uğurlu liderlik nümunəsi yaratmağın özəl təcrübəsi mövcuddur. Bu da yuxarıda vurğuladığımız təcrübənin olmaması fikrinin nisbi xarakter daşıdığını göstərir. Eyni zamanda, meydana gələn yeni şərtlər daxilində liderin uğurlu olması üçün yaradıcı fəaliyyətinin zəruriliyini ortaya çıxarır.

## Postmüharibə dövründə zəkavi xarici siyasət

Hələ 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev vurğulayırdı ki, "beynəlxalq ictimai-siyasi və elmi dairələrində İlham Əliyevin xarici siyasətini "Intelligent Foreign Policy" kimi adlandırırlar". Əlbəttə, bu adi termin deyildir və onun siyasi-nəzəri izaha ehtiyacı vardır. Məsələ onunla bağlıdır ki, H.Hacıyevin də qeyd etdiyi kimi, XXI əsrdə, adətən, xarici siyasəti "smart" ("ağıllı"), "soft" ("yumşaq"), "hard power" ("sərt güc") kimi terminlərlə ifadə edirlər.

"Soft" termini xarici siyasətdə başlıca olaraq mədəni, mənəvi, əxlaqi, ideoloji və s. qeyri-maddi dəyərlərin tətbiqini nəzərdə tutur. Bu termin J.Nayın (kiçik) "soft power" anlayışından qaynaqlanır. Onu deyək ki, J.Nay (kiçik) həmin anlayışı birbaşa ABŞ-nin xarici siyasətini xarakterizə etmək və ya onu belə görmək üçün yaratmışdır. O, belə hesab edirdi ki, Amerika üçün əsas məqsəd öz dəyərlərini dünyaya qəbul etdirməkdən ibarətdir, lakin bunun üçün öncə "yumşaq" təsirlər aparıcı olmalıdır. Bu, nəticə verməsə, "hard power" ("sərt güc") işə salına bilər. Yəni, hətta, hərbi təsir edilə bilər. Əsas məqsəd burada amerikan dəyərlərinin qəbul edilməsinə nail olmaqdan ibarətdir.

Bunlardan başqa, Qərb politoloji fikrində (o cümlədən, J.Nayın fikirlərində) "smart" termini də işlədilir. J.Nayın tərifinə görə, "ağıllı güc" uduşlu strategiyanın formalaşdırılması üçün yumşaq və sərt gücün uyğunlaşdırılmasını nəzərdə tutur. Deməli, xarici siyasətdə "ağıllı" olmaq J.Naya görə "uduşlu strategiya" müəyyən etməklə bağlıdır. Bunun üçün yumşaq və sərt güclər bir-birini tamamlamalıdır. Yəni mədəni, ideoloji, və s. dəyərlərlə hərbi güc vasitəsilə təsirlər harmoniya təşkil etməlidir. Diplomatiyanın bütün sferaları ilə hərbi gücü uzlaşdırmaq faktiki olaraq "ağıllı güc" olmaq anlamını verir.

Yuxarıdakı qısa izahlardan aydın olur ki, xarici siyasəti "smart", "soft", "hard" kimi xarakterizə etmək, əslində, bütün hallarda güclü bir dövlətin liderliyinin təminatına xidmət edən yanaşmalardır. Əvvəlki xarakteristikalardan fərqli cəhət ondan ibarətdir ki, qarşı tərəfi "qıcıqlandırmamağa", ona özünü xeyirxah kimi göstərməyə üstünlük verilir.

Deməli, siyasi-nəzəri cəhətdən vurğulanan xarakteristikaların hər birinin real məqsədlə ona nail olmaq mexanizmləri arasında müəyyən ziddiyyət və ya çatışmazlıq vardır. Yəni lider bu yanaşmalarda kifayət qədər real xeyirxah, qurucu, xilasedici və humanitar görünmür. "Intelligent Foreign Policy" bütün bunların fonunda çox maraqlı və əhəmiyyətli anlayış təsiri bağışlayır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***




# Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğu

**İyunun 24-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclası keçirilib.**

İclasda Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Azərbaycan Respublikası Prezidentinin sorğusuna baxılaraq Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 27-də saat 10:00-a təyin edilmiş iclasında baxılacaq.

***XQ***

# Avropadaxili Vergi Administrasiyaları Təşkilatına sədrlik Azərbaycana keçdi

**Macarıstanın paytaxtı Budapeşt şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) 28-ci Baş Assambleyası çərçivəsində inzibati sessiya keçirilib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən (DVX) aldığımız məlumata görə, DVX-nin rəisi Orxan Nəzərlinin rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə iştirak edib.**



Baş Assambleyanın sessiyasında IOTA prezidenti, Macarıstan Milli Vergi və Gömrük Administrasiyasının sədri Ferens Vaquyhelyi çıxışında 2023-2024-cü illərdə görülmüş işlər və əldə edilmiş nəticələr barədə ətraflı danışıb. Sonra IOTA-nın cari və ortamüddətli perspektivdə fəaliyyətini əhatə edən sənədlər səsvermə yolu ilə təsdiqlənib.

Sessiyada 2024-2025-ci illər üzrə IOTA-nın prezidenti vəzifəsinə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında DVX-nin rəisi Orxan Nəzərli seçilib və IOTA İcraiyyə Şurasının üzvləri müəyyənləşdirilib. İcraiyyə Şurasında Belçika, Estoniya, Finlandiya, Macarıstan, Rumıniya, İsveçrə və İsveçin təmsil olunacaqları qərara alınıb. Qurumun prezidentliyini həyata keçirmək üçün sədrlik Azərbaycan DVX-nin İcraiyyə Şurasına tapşırılıb.

Baş Assambleyanın sessiyasında çıxış edən DVX-nin rəisi O.Nəzərli beynəlxalq vergi sistemində müasir trendlər və çağırışlar, vergi inzibatçılığının ortamüddətli dövr üçün prioritet inkişaf istiqamətləri barədə danışıb. O.Nəzərli vergi inzibatçılığının yüksək səriştə, məlumatlılıq və strateji yanaşmalar tələb edən dinamik sahə olduğunu deyib. Xidmət rəisi, eyni zamanda, son illər ərzində vergi sistemlərində qloballaşma və rəqəmsallaşma nəticəsində müəyyən transformasiya müşahidə edildiyini də diqqətə çatdırıb.

Beynəlxalq miqyasda bu transformasiyanın mükəmməl və müasir vergi sisteminin təşkilini, çağırışlara cavab vermək üçün vergi administrasiyalarının əməkdaşlığının gücləndirilməsini tələb etdiyini vurğulayan O.Nəzərli DVX-nin IOTA-ya prezidentliyini ilk dəfə icra edəcəyini diqqətə çatdıraraq, iştirakçıları planlar barədə məlumatlandırıb. DVX-nin rəhbəri qarşıdakı dövr ərzində IOTA çərçivəsində əməkdaşlığın səmərəliliyinin artırılması üçün bütün səylərin səfərbər edilməsinin nəzərdə tutulduğunu da xatırladıb.

DVX-nin rəisi çıxışında yuxarıda sadalanan məsələlərlə yanaşı, vergi administrasiyaları tərəfindən səmərəli mexanizmlərin tətbiqi məqsədilə müasir tendensiyaların yaxından izlənilməsinin vacibliyini qeyd edib. IOTA-nın 2023-2027-ci illər üzrə strategiyasında müəyyənləşdirilən hədəflərin reallaşdırılmasına xüsusi diqqət yetiriləcəyini bildirən DVX rəisi, həmçinin sözügedən assambleyanın potensialının gücləndirilməsinin və imkanlarının artırılmasının başlıca prioritetlərdən olacağını vurğulayıb. Xidmət rəisi IOTA-nın növbəti Baş Assambleyasının Azərbaycanda keçiriləcəyini diqqətə çatdıraraq bütün iştirakçıları ölkəmizdə təşkil olunacaq tədbirlər və planlaşdırılan təşəbbüslərdə fəal iştiraka dəvət edib.

Daha sonra IOTA prezidentliyinin rəmzi hesab edilən təşkilatın bayrağı Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının sədri Ferens Vaguyheyli tərəfindən Azərbaycanın DVX-nin rəisi O.Nəzərliyə təqdim olunub.

Yeri gəlmişkən, Avropanın 43 ölkəsinin birləşdiyi və vergi sahəsində ixtisaslaşmış mühüm beynəlxalq təsisat olan IOTA-nın təsis edilməsi haqqında rəsmi qərar 1996-cı il oktyabr ayının 28-30-da Varşava şəhərində keçirilən Mərkəzi, Şərqi Avropa və Baltikyanı Ölkələrin Vergi Administrasiyalarının 3-cü konfransı zamanı qəbul olunub.

Təşkilatın əsas missiyası Avropa regionunda vergi administrasiyaları arasında əməkdaşlığa müsbət təsir göstərmək və onların fərdi tələbatlarına uyğun inkişaflarını dəstəkləmək məqsədilə vergi inzibatçılığının praktiki məsələlərinin müzakirəsi üçün forumun gerçəkləşdirilməsidir. IOTA-nın Avropa regionunda vergi inzibatçılığının praktiki məsələlərinin müzakirəsi üçün aparıcı təşkilat olmağa çalışması xüsusi diqqət çəkir.

Azərbaycan nümayəndəsinin IOTA prezidentliyinə seçilməsi, əslində, ölkəmizə göstərilmiş böyük bir etimad, IOTA ilə uzun müddət davam edən səmərəli əməkdaşlığa verilən qiymətdir. Başqa sözlə, bu, Baş Assambleya çərçivəsində Azərbaycan nümayəndəsinin IOTA prezidentliyinə seçilməsi uzun müddət davam edən səmərəli prosesin nəticəsidir. Bu, əlbəttə, təkcə DVX-nın deyil, ölkəmizin beynəlxalq arenada artan nüfuzundan və ölkəmizə olan etimaddan irəli gəlir.

Bundan əlavə, Avropadaxili Vergi Administrasiyaları Təşkilatına rəhbərliyin Azərbaycana verilməsi ölkəmiz üçün beynəlxalq vergi idarələri ilə məlumat və təcrübə mübadiləsinə daha geniş imkanlar yaradır.

***V.BAYRAMOV***
***XQ***

# Əməliyyat zamanı həlak olmuş polis əməkdaşları dəfn ediliblər

**İyunun 24-də paytaxtın Xəzər rayonunun Şüvəlan qəsəbəsində axtarışda olan şəxsin saxlanılması məqsədilə keçirilən əməliyyat zamanı həlak olan polis kapitanı Eldəniz Məmmədov, serjantlar Mahir Ağayev və Mirəli Heydərov torpağa tapşırılıblar.**



Əvvəlcə polis əməkdaşları ilə vida mərasimi keçirilib. Mərasimdə onların ailə üzvləri, Daxili İşlər Nazirliyinin rəhbərliyi və şəxsi heyəti iştirak edib. Eldəniz Məmmədov Bakıxanov qəsəbəsində, Mahir Ağayev Binə qəsəbəsində, Mirəli Heydərov isə Kürdəmirin Çəyli kəndində dəfn olunublar.

Dəfn mərasimlərində Daxili İşlər Nazirliyinin yüksəkrütbəli şəxsləri, eləcə də şəxsi heyət, həlak olan polislərin doğmaları, rayon sakinləri, qazilər, müvafiq rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, iyunun 24-də Şüvəlan qəsəbəsində əvvəllər dəfələrlə məhkum olunmuş, axtarışda olan 1986-cı təvəllüdlü Rövşən Allahverdiyev polis əməkdaşları tərəfindən saxlanılarkən silahlı müqavimət göstərib və ov silahından atəş açaraq 3 polis əməkdaşını və 1 mülki vətəndaşı qətlə yetirib.

R.Allahverdiyev polis əməkdaşları tərəfindən zərərsizləşdirilib. Faktla bağlı cinayət işi başlanılıb, istintaq hərəkətləri davam etdirilir.

**XQ**

# Qırğızıstan səfiri XİN-də

**İyunun 24-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Qırğız Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Maksat Mamıtkanovu qəbul edib.**



Səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Səfiri təyinatı münasibətilə təbrik edən nazir ona fəaliyyəti müddətində uğurlar arzulayıb.

Tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, o cümlədən, siyasi, iqtisadi, nəqliyyat, humanitar, mədəni sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi və birgə layihələrin həyata keçirilməsinə dair fikir mübadiləsi aparıblar.

Nazir ölkələrimiz arasında əsrlər boyu mövcud olan etnik, mədəni, dini bağlara əsaslanan dostluq münasibətlərindən danışaraq bu əlaqələrin inkişaf perspektivlərini vurğulayıb. Hazırda Azərbaycan və Qırğızıstan arasında bütün səviyyələrdə qarşılıqlı anlaşmanın mövcud olduğu bildirilib.

Görüş zamanı COP29 çərçivəsində geniş əməkdaşlıq imkanlarının olduğu qeyd edilib.

**XQ**

# Vətən müharibəsi qəhrəmanları ilə görüş



**İyunun 24-də Silahlı Qüvvələr Günü münasibətilə Hərbi Prokurorluqda ictimaiyyət nümayəndələrinin iştirakı ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində və antiterror əməliyyatlarında iştirak etmiş hərbi qulluqçuları, o cümlədən, qazilər və 17 nəfər Vətən müharibəsi qəhrəmanı ilə görüş keçirilib.**

Baş prokurorun müavini – hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev iştirakçıları, bütün qaziləri və şəhid ailələrini Silahlı Qüvvələr Günü münasibətilə təbrik edərək, onlara ən xoş arzularını çatdırıb.

Milli Məclisin deputatları Aydın Mirzəzadə, Elşad Mirbaşir, Səbinə Xasayeva və Əməkdar incəsənət xadimi, ehtiyatda olan polkovnik Abdulla Qurbani, eləcə də çıxış edən digər şəxslər Vətən müharibəsindən, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi qələbədən, eləcə də 44 günlük döyüşlərdə və antiterror əməliyyatlarında Hərbi Prokurorluğun özünəməxsus rolundan, onun silahlı qüvvələrlə, o cümlədən, Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və aidiyyəti təşkilatlarla birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs ediblər.

# Zəngilanda QHT-lərin Əməkdaşlıq Forumu

**Azad edilmiş ərazilərdə – Şərqi Zəngəzurda ilk dəfə iyunun 24-də Azərbaycan Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumu işə başlayıb. Zəngilan Konqres Mərkəzində təşkil olunan forum Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Milli QHT Forumunun birgə təşkilatçılığı ilə keçirilir.**

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva forumun "Yaşıl dünya naminə həmrəylik İli" çərçivəsində təşkil olunduğunu diqqətə çatdırıb, tədbirdə QHT-lərin 200-ə yaxın əməkdaşının iştirak etdiyini bildirib. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri barədə geniş təqdimatla çıxış edib, azad edilmiş ərazilərdə QHT-lərin forumunun ilk dəfə Zəngilanda keçirilməsini yüksək qiymətləndirib.

Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin sektor müdiri Tural Əliyev bildirib ki, son dövrlər QHT-lərlə iş sahəsində kəmiyyətdən keyfiyyətə əsaslı keçid baş verib. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə QHT sektorunda dərinləşdirilən islahatların, yaradılan sağlam mühitin məntiqi nəticəsidir. Azərbaycan Milli QHT Forumunun İdarə heyətinin sədri Ramil İskəndərli QHT-lərin imkanlarından səmərəli istifadə olunması üçün ətraflı təhlil işlərinin aparıldığını bildirib.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası İcraiyyə komitəsinin sədri Sahib Məmmədov QHT sektorunda uğurla transformasiya prosesinin getdiyini diqqətə çatdırıblar.

Sonra forum çərçivəsində "Azərbaycan QHT-ləri: nəticələr və hədəflər" adlı panel müzakirələr olub. Bu gün məclisdə Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları", "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" mövzularında da panel müzakirələr aparılacaq.

**XQ**

# Qoşulmama Hərəkatının Bakı Forumu başa çatıb

**Dünən Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının təşkil etdiyi QHGT İqlim Fəaliyyəti Forumunun bağlanış mərasimi olub.**



Qurumun baş katibi Nigar Bağırlı tədbir iştirakçılarının 5 gün ərzində Bakı və Şamaxı şəhərlərində keçirilən forumda apardıqları fəal müzakirələrin və innovativ təkliflərin beynəlxalq iqlim prosesində önəmindən danışıb. Qeyd edib ki, müzakirələrin yekununda qəbul edilən sənəd COP29 Sədrliyinə təqdim olunacaq.

Azərbaycan Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik idarəsinin rəisi, COP29-un baş danışıqçısının müavini Samir Becanov gəncləri Forumu uğurla başa çatdırmaları münasibətilə təbrik edib.

Sonra tədbir iştirakçılarına sertifikatlar təqdim olunub.

Xatırladaq ki, forumda QHGT-nin bir sıra milli bölmələrinin nümayəndələri, yerli və əcnəbi gənclər, həmçinin dövlət qurumlarının və beynəlxalq təşkilatların nümayəndələri, ekspertlər iştirak ediblər.

**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 308** **Bakı şəhəri 21 iyun 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 272 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin strukturu"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 272 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 961 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin strukturu"na aşağıdakı məzmunda 5-9-cu hissələr əlavə edilsin:

"5. "AZTV".
6. "Mədəniyyət TV".
7. "İdman TV".
8. "Azərbaycan Radiosu".
9. "Azərbaycan Beynəlxalq Radiosu"."

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 309** **Bakı şəhəri 21 iyun 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252 (Cild I) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1-ci hissə üzrə:

7-ci sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 7. | 2341<br>23.42.10 | Təsərrüfat və dekorativ saxsı məmulatlarının istehsalı<br>Saxsı santexnika məmulatlarının istehsalı |

aşağıdakı məzmunda 15-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 15. | | Müasir suvarma sistemlərinin tətbiq edildiyi ərazisi 5 hektardan az olmayan istixana təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının yetişdirilməsi |

3-cü hissəyə aşağıdakı məzmunda 262-1-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 262-1. | 6406 | Ayaqqabı detalları (bərkidilmiş və ya bərki-dilməmiş əsas içlikli ayaqqabı üstünün biçilmiş üzləri daxil olmaqla); qoyulma içliklər, dabanlıqlar və analoji məmulatlar; getrlər, qamaşlar və analoji məmulatlar və onların detalları |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 310** **Bakı şəhəri 21 iyun 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun və "Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2432 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 56 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 aprel tarixli 187 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü hissə üzrə:

1.1. 3.1.1.1-ci yarımbənddə "icazənin surəti" sözləri "icazə" sözü ilə, 3.1.1.2-ci yarımbənddə "sənədin surəti" sözləri "sənəd" sözü ilə, 3.1.1.5-ci yarımbənddə "situasiya" sözü "tikinti ərazisinin baş" sözləri ilə əvəz edilsin;

1.2. 3.1.5-ci yarımbənddə "bölmələrinin surəti" sözləri "bölmələri" sözü ilə əvəz edilsin.

**2.** 4-cü hissə üzrə:

2.1. 4.1-ci bənddən "kağız üzərində və" sözləri çıxarılsın;

2.2. 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.2. Tikintiyə icazə verildikdə bu Qaydaların 3.1.1-ci yarımbəndində nəzərdə tutulmuş məlumatlar Reyestrə ötürülür, həmin məlumatlar Reyestrdə qeydə alınaraq tikinti obyektinə kod verilir və bu barədə bu Qaydaların əlavəsində göstərilən Şəhadətnamə tikintiyə icazə verən orqana (quruma) göndərilir.";

2.3. 4.2-1-ci bəndin birinci cümləsində "cümləsi ilə müəyyən edilən müddətlər bitdiyi gündən 3 iş günü ərzində tikinti obyektlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrini Reyestrə təqdim edir" sözləri "cümləsinə əsasən 10 gün müddətində layihəyə dair iradın sifarişçiyə təqdim edilməməsi ilə bağlı tikinti işlərinə başlamaq hüququ yarandıqda, bu barədə məlumatın Reyestrə ötürülməsini təmin edir" sözləri ilə əvəz edilsin;

2.4. 4.2-2-ci bəndin birinci cümləsindən "və ya bilavasitə təqdim edir" sözləri, ikinci cümləsindən "sifarişli poçt göndərişi ilə" və "və ya bilavasitə təqdim edə" sözləri çıxarılsın;

2.5. 4.5-ci bənd ləğv edilsin;

2.6. 4.6.4-cü yarımbəndin birinci abzasında "Reyestr kitabında" sözləri və üçüncü abzasında "reyestr kitabında" sözləri "Reyestrdə" sözü ilə əvəz edilsin;

2.7. 4.8-ci bənddə "təqdim edirlər" sözləri "Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürürlər" sözləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsi çıxarılsın;

2.8. aşağıdakı məzmunda 4.9-cu bənd əlavə edilsin:

"4.9. Bu Qaydaların 3.1.1-ci, 3.1.2-ci yarımbəndlərində, 4.2-ci, 4.3-cü və 4.7-ci bəndlərində nəzərdə tutulmuş məlumatların ötürülməsi şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.".

**3.** "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qayda-ları"nın əlavəsindən "Müəssisənin (təşkilatın) rəhbəri", "(imzası adı və soyadı)" və "M.Y." hissələri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri.***

# Birləşmiş Ərəb Əmirlikləri – Şərqdə mötəbər tərəfdaşımız

## Son illərdə bu ölkə ilə münasibətlərimiz genişlənir, əlaqələrimiz möhkəmlənir



**Azərbaycana xarici investisiya qoyuluşunu sürətləndirmək üçün son illər bir sıra layihələr gerçəkləşdirilib. İnvestisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi və gömrük islahatları davam etdirilib, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə", biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib.**

İnvestisiya mühitinin yaxşılaşdırılması və ölkədə biznes fəaliyyətinin asanlaşdırılması məqsədilə Prezident İlham Əliyevin "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21 dekabr 2015-ci il tarixli fərmanına əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib. Rəqəmsal transformasiyaya uyğun olaraq ölkədə xarici investorların biznes fəaliyyətinə başlaması elektronlaşdırılaraq sadələşdirilib.

Azərbaycana yatırılan investisiyalarda əcnəbi sərmayədarların səmərəli fəaliyyəti xüsusi diqqət çəkir. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) respublikamızla sıx əməkdaşlığı fonunda bu, aydın nəzərə çarpır.

Qeyd edək ki, 2024-cü ilin I rübündə BƏƏ-nin Azərbaycan iqtisadiyyatına birbaşa investisiya qoyuluşu 190 milyon 686 min dollar təşkil edib. Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 136 milyon 343 min dollar çox olub.

Cari ilin I rübündə Azərbaycandan BƏƏ-nin iqtisadiyyatına birbaşa investisiya qoyuluşu isə 65 milyon 787 min dollar təşkil edib ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə çoxdur.

Qeyd edək ki, 2024-cü ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmi 1 milyard 508 milyon dollar, Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa investisiyaların həcmi isə 330 milyon 451 min dollar təşkil edib.

Azərbaycan hazırda zəngin bərpaolunan enerji potensialı hesabına iri layihələr həyata keçirir və 1000 MVt gücündə bərpaolunan enerji stansiyalarının təməlinin qoyulması respublikamızın "yaşıl enerji" sahəsində bir ilkdir. Bu sahədə BƏƏ-nin şirkətlərinin fəaliyyəti daha çox diqqət çəkir.

Yeri gəlmişkən, cari il iyunun 4-də BƏƏ-nin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala Günəş elektrik stansiyalarının və 240 MVt gücündə Abşeron–Qaradağ Külək Elektrik Stansiyasının təməli qoyulub. Bakı Enerji Həftəsində təməli qoyulan bu layihələr hesabına illik 2 milyard 305 milyon kVt/saat elektrik enerjisinin istehsalı gözlənilir ki, bununla da 496 milyon kubmetr təbii qaza qənaət olunacaq. Adları çəkilən stansiyaların işə salınması ilə 1 milyon tona yaxın karbon emissiyasının qarşısı alınacaq və yeni iş yerləri yaradılacaq.

Prezident İlham Əliyev stansiyaların tikintisi ilə bağlı bildirib ki, böyük həcmdə xarici sərmayənin Azərbaycanın qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərdən biridir: "Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulub. Bu, bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan həm xam neft, təbii qaz, neft məhsulları, həm də elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Biz dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır".

Azərbaycanla "Masdar" şirkəti arasında bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlıq üzrə indiyədək dörd anlaşma memorandumu imzalanıb. İmzalanan sənədlər çərçivəsində Qaradağ rayonunda Günəş Elektrik Stansiyasının tikintisi ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da "yaşıl" və təmiz enerji mənbələrinin işlənməsi nəzərdə tutulub.

Prezident İlham Əliyev iyunun 21-də "Euronews" televiziyasına müsahibəsində də bu barədə ətraflı bəhs edib. Ölkə rəhbəri "Masdar"ı Azərbaycanın bərpaedilən enerji sahəsində strateji tərəfdaşı adlandırıb və BƏƏ-nin bu şirkəti ilə sıx əməkdaşlıq yaradıldığını diqqətə çatdırıb.

Dövlətimizin başçısı hələ bu il martın 1-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasındakı çıxışında da bu barədə ətraflı bəhs edərək ölkəmizin "yaşıl enerji" potensialının uğurla reallaşdırdığını, bu istiqamətdə mühüm uğurlara nail olduğunu bildirib. Ölkə rəhbəri daha sonra "Yaşıl dünya naminə həmrəylik ili"ndə bərpaolunan enerji ilə əlaqədar geniş tədbirlər həyata keçirildiyini, bu layihələr arasında keçən ilin oktyabr ayında 230 meqavatlıq gücə malik ilk böyük Günəş Elektrik Stansiyasının açılışının gerçəkləşdiyini qeyd edib: "Bu stansiya bərpaolunan enerji sahəsində aparıcı şirkətlərdən biri "Masdar" tərəfindən inşa olunub. İmzalanan müqavilələrə və anlaşma memorandumlarına əsasən, 2030-cu ilədək Azərbaycanda 5 min meqavata qədər, yəni 5 qiqavat günəş və külək enerjisi istehsal edilməsi planlaşdırılıb".

Mütəxəssislərin fikrincə, 240 MVt gücündə Xızı–Abşeron Külək Elektrik Stansiyası, Cəbrayıl rayonunda 240 MVt gücündə Şəfəq Günəş Elektrik Stansiyası, həmçinin ilk bərpaolunan enerji hərracı nəticəsində tikiləcək 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyası Azərbaycanın "yaşıl enerji" gündəliyində yer alan, dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilən layihələrdir. 2027-ci ilin sonuna qədər reallaşacaq 2 QVt-dək "yaşıl" güclər hesabına isə ümumi elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının isə 33 faizə yüksələcəyi gözlənilir.

Beləliklə, təməli qoyulan külək və günəş elektrik stansiyaları layihələri ölkəmizin yaşıl gündəliyinin məqsədlərinə uyğun olmaqla, davamlı inkişafın təmin olunmasına əvəzsiz töhfə verəcək.

Burada iki ölkəni daha da yaxınlaşdıran bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti BƏƏ-nin SARB və "Umm Lulu" yataqlarında 3 faizlik iştirak payı əldə edib. Bununla bağlı cari il mayın 30-da Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) ilə SOCAR arasında saziş imzalanıb. Bu, SOCAR-ın 32 illik fəaliyyəti dövründə Azərbaycandan kənarda sahib olduğu ilk hasilat payıdır.

SOCAR-ın prezidenti Rövşən Nəcəfin və ADNOC-un icraçı direktoru Abdulmunim Saif Əl Kindinin iştirakı ilə keçirilən imzalanma mərasimində Azərbaycan ilə BƏƏ arasında strateji enerji tərəfdaşlığına əsaslanan sənədin SOCAR–ADNOC əməkdaşlığının genişləndirilməsinə xidmət etdiyi vurğulanıb.

Tədbirdə şirkətlər arasında əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi diqqətə çatdırılıb. Bu xüsusda ADNOC tərəfindən "Abşeron" qaz-kondensat yatağında 30 faizlik iştirak payının əldə edilməsinin, həmçinin şirkətlər arasında "mavi hidrogen", geotermal və karbon idarə edilməsi üzrə əməkdaşlıq məsələlərini nəzərdə tutan Strateji Əməkdaşlıq Sazişinin önəmi də qeyd olunub.

Göründüyü kimi, son zamanlar BƏƏ və Azərbaycan arasında sıx təmaslar hiss olunmaqdadır. Bu münasibətlər onu göstərir ki, Prezident İlham Əliyev xarici ölkələrlə bərabərhüquqlu və ikitərəfli əməkdaşlığın inkişafında maraqlıdır. Əlbəttə, BƏƏ həm zəngin enerji yataqlarına, həm də maliyyə vəziyyətinə görə dünyada sayılıb-seçilən dövlətlərdən biridir. Ölkələrimiz arasında əməkdaşlıq isə getdikcə inkişaf edir. BƏƏ tərəfindən Azərbaycana yatırılan investisiyaların da sayı artmaqdadır.

# Aqrar sığorta kəndi itkilərdən qoruyur

**Kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi baxımından vacib məsələlərdən biri də aqrar sığorta mexanizmidir. Qabaqcıl dünya təcrübəsinə əsasən, sığorta mexanizmləri aqrar sektorda risklərin idarə edilməsi və davamlı fəaliyyətin təmin edilməsi üçün ən mühüm vasitə hesab olunur. Bu fikirləri kənd təsərrüfatı naziri Məcnun Məmmədov ötən həftə Bakıda keçirilmiş Beynəlxalq Sığorta Forumunda çıxışı zamanı səsləndirib.**

Hazırda Azərbaycanda fermerlərə 48 bitki növü üzrə 14 riskdən, heyvandarlıq üzrə 8 riskdən sığorta təminatının təklif edildiyini diqqətə çatdıran nazir bildirib ki, yaxın illərdə ölkəmizdə aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur. Təklif edilən aqrar sığorta xidmətlərinin fermerlərin 96 faizi üçün əlçatan olduğunu diqqətə çatdıran Məcnun Məmmədov ölkənin kənd təsərrüfatı təyinatlı ərazilərinin 25 faizinin artıq sığorta təminatı altına alındığını bildirib. "Aqrar Sığorta Fondu tərəfindən sığorta təminatı verilmiş fermerlərə baş vermiş sığorta hadisələrinə görə ödənilən təzminatlar ildən-ilə artmaqdadır. Bu amil zərərçəkənlərə fəaliyyətlərini bərpa etməyə və kənd təsərrüfatı fəaliyyətlərini fasiləsiz davam etdirməyə imkan verir." – deyə o əlavə edib.



Nazir Məcnun Məmmədov Beynəlxalq Sığorta Forumunda çıxışı zamanı kənd təsərrüfatının birbaşa təbiətlə bağlı sahə olduğunu vurğulayaraq bu mənada planetimizdə müşahidə olunan qlobal iqlim dəyişikliyinin aqrar sahəyə mənfi təsirinin artmasını bildirib. Qeyd olunub ki, qlobal istiləşmə, atmosfer yağıntılarının azalması və ya anormal paylanması, sel və subasma hadisələri, torpaqların davamlı erroziya və şoranlaşmaya məruz qalması aqrar sahə üçün ciddi çağırışlar yaradır. Onun sözlərinə görə, Azərbaycan hökuməti öz növbəsində iqlimə uyğun kənd təsərrüfatı sistemlərinin inkişafına dəstək verir. Bu baxımdan ölkədə iqlimə uyğun "ağıllı" əkinçilik və bağçılıqda müasir texnologiyaların tətbiqi stimullaşdırılır.

Azərbaycanda tətbiq edilən aqrar sığorta modelinin dünyada olan analoji sistemlərin uğurlu tətbiqinə əsaslanaraq hazırlandığını bildirən nazir bu baxımdan Türkiyə Respublikasının dəstəyini yüksək qiymətləndirib. Qeyd olunub ki, qardaş ölkənin TARSİM sisteminin təcrübəsi və dəstəyi ilə formalaşdırılan bu model fermerlərimizin dayanıqlı fəaliyyətlərini təmin etmək, sahəyə marağın stimullaşdırılmasını həyata keçirmək və gəlirlərinin davamlılığını qorumaq üçün nəzərdə tutulub. Bununla yanaşı, nazir Özbəkistanla da aqrar sığorta sahəsində yaxından əməkdaşlıq edildiyini diqqətə çatdırıb.

Məcnun Məmmədov, həmçinin deyib ki, ölkəmizdə dövlət və özəl sektor əməkdaşlığı ilə qurulan bu sistem işlək və uğurlu olmaqla yanaşı, sığorta bazarını gücləndirir. Onun sözlərinə görə, məhsulların Aqrar Sığorta Fondu ilə özəl sığorta şirkətləri tərəfindən birgə sığortalanması investisiya risklərini azaldır, fermerlərə dövlət dəstəyini gücləndirir, məşğulluğa müsbət təsir edir, ərzaq təhlükəsizliyinə töhfə verir və sığorta bazarını gücləndirir. Bu baxımdan ölkəmizdə aqrar sığorta mexanizminin tətbiqi dövlətin aqrar sahəyə dəstəyinin növbəti təzahürü kimi qiymətləndirilməlidir.

Ölkəmizin aqrar sığorta ilə bağlı hədəflərinin geniş olduğunu vurğulayan nazirin sözlərinə görə, yaxın gələcəkdə bu mexanizmin əhatə dairəsinin genişləndirilməsi, iqlim dəyişikliyinin kənd təsərrüfatı sektoruna təsirinin minimuma endirilməsi məqsədilə daha innovativ sığorta məhsullarının təqdim edilməsi nəzərdə tutulur.

Yeri gəlmişkən, cari ilin may–iyun aylarında ölkəmizin əksər rayonlarında qeyri-sabit hava şəraiti müşahidə olunub. Bu da kənd təsərrüfatının bitkiçilik sahəsinə təsirsiz ötüşməyib. Belə ki, ayrı-ayrı günlərdə yağan aramsız leysan yağışları və dolu, eləcə də güclü külək, qasırğa və fırtına nəticəsində əkin sahələrinə ciddi ziyan dəyib. Bu səbəbdən də son günlər Aqrar Sığorta Fonduna müraciətlər artmaqdadır.

Fonddan verilən məlumata görə, təkcə son bir həftə ərzində – iyunun 15-dən 21-dək müddətdə əkin sahələrinə dəymiş zərərlərlə bağlı fermerlər tərəfdən 120-dən çox müraciət daxil olub. Müraciətlər Şamaxı, Qobustan, Şəki, Oğuz, Beyləqan, Zaqatala, Hacıqabul, İsmayıllı, Kürdəmir, Ağsu, Füzuli, Yevlax, Ağcabədi, Xocavənd, Tərtər, Salyan, Balakən, Ağdam, Tovuz, Zərdab, Goranboy, Cəlilabad, İmişli, Ağstafa, Biləsuvar, Şəmkir, Qusar, Qax və digər rayonları əhatə edib. Zərərlərin dəyməsi ilə bağlı müraciətlər isə, əsasən, dolu, intensiv yağışlar, güclü külək, qasırğa, fırtına, sel-subasma kimi hadisələri əhatə edir.

Təbiət hadisələri və zərərlər fondun sığorta etdiyi əksər bitki növləri üzrə – buğda, arpa, qarğıdalı, pambıq, nektarin, şaftalı, alma, armud, ərik, üzüm, heyva və digər bitkilərə zərər vurub. Ümumilikdə, bu ilin ilk 6 ayı ərzində əkin sahələrinə dəyən zərərlərlə bağlı Aqrar Sığorta Fonduna 1200-ə yaxın müraciət daxil olub ki, bunların da 800-ü son 2 ayın payına düşüb.

Sığortalı təsərrüfatlardan daxil olan müraciətlər üzrə hadisələrin araşdırılması üçün isə aqrar sığorta ekspertləri təyin edilərək ərazilərə ezam olunurlar. Hazırda fondun aqrar sığorta ekspertləri bölgələrdə təsərrüfatlara dəyən zərərlərin hesablanması ilə məşğuldurlar. Biçin və məhsul yığımı ərəfəsində aparılan yekun qiymətləndirmədə əkin sahəsinə dəyən zərər təkrar dəyərləndirilir, müvafiq sənədlər toplandıqdan sonra yekun rəy əsasında fermerə sığorta ödənişinin verilməsi barədə qərar qəbul edilir.

Aqrar Sığorta Fondundan o da bildirilib ki, ötən müddətdə sığortası olmayan əkin sahələri üzrə müraciətlərin sayında da artım qeydə alınıb. Belə əkin sahələri və təsərrüfatlar üçün ödəniş nəzərdə tutulmadığından həmin müraciətlər üzrə hər hansı araşdırma aparılmayacaq.

Xatırladaq ki, Azərbaycanda aqrar sığortanın tətbiqi Prezident İlham Əliyevin "Aqrar Sığorta Fondunun yaradılması barədə" 19 avqust 2019-cu il tarixli Fərmanı və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Belə ki, həmin sənədlər kənd təsərrüfatında risklərin sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Aqrar sığorta əkin sahələrini təbiət hadisələri – dolu, qasırğa-fırtına, sel-subasma, şaxtavurma, leysan, normadan artıq qar yağıntıları, 3-cü şəxslərin hərəkətləri və sair risklərdən qoruyur. Sığorta haqqının 50 faizini isə fermerlərə dəstək üçün dövlət ödəyir. Nəticədə, fermerlər cüzi məbləğ ödəməklə meyvə bağlarını və tərəvəz sahələrini sərfəli şərtlərlə sığorta etməklə əkin sahələrini çoxsaylı risklərdən qoruya bilirlər.

## Xankəndidən Laçına rahat Şuşa yolu



**Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, Xankəndi–Şuşa–Laçın avtomobil yolunun tikintisi davam edir.**

Məlumatda ümumi uzunluğu 34 kilometr olan yolda 2 körpü, 4 tunel və 73 müxtəlif ölçülü suötürücü boruların inşasının nəzərdə tutulduğu bildirilir.

Hazırda uzunluğu 440 və 1100 metr olan birinci və üçüncü tunellərin giriş və çıxış portallarında, uzunluğu 540 metr olan ikinci tunelin çıxış portalında qazma işləri görülür. Ərazidə, eyni zamanda, layihə üzrə kommunikasiya xətlərinin köçürülməsi işləri də həyata keçirilir.

Xankəndi–Şuşa–Laçın avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilən ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

## Fermerlərə 32 milyon manat sərfəli kredit



**Bu ilin yanvar–may aylarında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) tərəfindən 5251 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 88,7 faiz çoxdur.**

Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına görə, cari ilin ilk beş ayında kənd təsərrüfatında fəaliyyət göstərən 1645 fiziki və hüquqi şəxsə 31,8 milyon manat məbləğində güzəştli kredit verilib.

Bunun 27,7 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 35 min manatı güzəştli kreditlər, 4,1 milyon manatı isə mikrokreditlərdir.

## Kimyadan tikintiyə



**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərin istehsalı müəssisəsində işlər tamamlanmaq üzrədir.**

Agentlikdən verilən məlumata görə, yaxın aylarda müəssisədə avadanlıqların quraşdırılması işlərinə başlanılacaq. 250 nəfərin daimi işlə təmin ediləcəyi müəssisənin investisiya dəyəri 20 milyon manatdır. Artıq layihə üzrə görülən işlərə 15 milyon manat sərmayə qoyulub. Zavodda tikinti kimyəvilərin istehsalı ilə yanaşı, ölkə ərazisində ilk dəfə olaraq müasir, müxtəlif təyinatlı su izolyasiya materiallarının və zəmin döşəmə məhsullarının istehsalı da nəzərdə tutulur.

Qeyd edək ki, 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilmiş "Kartaş Kimya" MMC-nin bu ilin sonunda fəaliyyətə başlaması planlaşdırılır. Sənaye müəssisəsi idxalın əvəzlənməsində və ixrac potensialının genişləndirilməsində əhəmiyyətli rol oynayacaq.

## Qarabağın bərpasına yatırım güzəşti



**Cari ildə Qarabağın bərpası və yenidən qurulmasında iştirak edən şirkətlərə kreditlər güzəştli şərtlərlə verilir.**

Bu sözləri Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Osman Xaliyev "5-ci yerli şirkətlərin tanıtım sərgisi"nin açılışında çıxışı zamanı deyib. O.Xaliyev bildirib ki, güzəştli kreditin minimum məbləği 5 milyon manatdır və 7 il müddətinə 15 faizlə verilir ki, bunun da 10 faizini dövlət subsidiya şəklində ödəyir.

Qeyd edək ki, Sahibkarlığın İnkişafı Fonduna bu il daxil olan 48 şirkətin müraciətinə baxılıb və onlara 1,5 milyard manat kredit ayrılıb. Fond istehsal sahələrinin artması və xarici bazarlara Azərbaycan istehsalı olan məhsulun çıxarılması istiqamətində fəaliyyət göstərən sahibkar və şirkətlərə xüsusi diqqət verir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Naxçıvanda çalınan "Qərbi Azərbaycana qayıdış" zəngi



**Qərbi Azərbaycan, tarixən, Naxçıvanla çiyin-çiyinə, kürək-kürəyə yaşayıb, düşmənlərə qarşı birgə dirəniş göstərib. Düşmən dairələr bu qədim türk yurdunda qondarma Ermənistan dövləti yaratsa da, bu mahallarda xalqımızın mövcudluğu XX əsrin sonlarınadək davam etmişdi.**

Xəyanətkar erməni toplumunun xalqımıza qarşı 1988-ci ildə başlamış və bir qərinə davam etmiş hərbi-siyasi təcavüzü ilk mərhələdə Qərbi Azərbaycanda min illərdən bəri məskun olan soydaşlarımızın sonuncu nəslinin də kütləvi surətdə soyqırımı və deportasiyaya məruz qalması ilə sonuclandı. O zaman doğma ölkəmizə üz tutan Qərbi azərbaycanlıların qonşu nəslinin başıbəlalı köçlərinə, ilk olaraq, özü də işğal hədəfində olan qonşuluqdakı Naxçıvan qucaq açdı.

Ermənistanın separatçı-işğalçı düşmənçiliyini kəskin etirazla qarşılamış və buna görə də əzəli vətənlərindən vəhşiliklə qovulmaqla, işgəncələrə məruz qalmaqla cəzalandırılıb muxtar respublikada məskunlaşmış qaçqınlar tezliklə burada özlərinə isti yuva qurdular. O vaxtdan Qərbi Azərbaycanlılar həm Naxçıvanın qorunub saxlanmasında, həm də xalqımızla birlikdə Qarabağ müharibəsində xalqımızla eyni cəbhədə dəyanət və qeyrət göstərdilər. Bu örnək, nəhayət, 2020-ci ilin Zəfər yürüşündə Ermənistanın işğalına son qoymaqda önəmli rol oynayan milli birliyin ən yaxşı timsallarından biri kimi tarixə yazıldı.

Keçən ilin sonunda Azərbaycan Prezidenti, qalib Komandan İlham Əliyevin xeyir-duası və himayəsi ilə mütəşəkkil hərəkat kimi start götürmüş Qərbi Azərbaycana qayıdış konsepsiyasının gerçəkləşməsinə önəmli dəstək hərəkatında isə iki ildir ki, Naxçıvan təşəbbüskarlığı və əməli addımları ilə seçilir. Keçən ilin bu vaxtlarında muxtar respublikada keçirilmiş "Qərbi Azərbaycana qayıdış" ümumölkə festival-konqresi öz dəyəri və önəmi ilə ənənəviləşərək bugünlərdə Naxçıvanda daha geniş və məzmunlu formada təkrarlandı.







Xəbər verdiyimiz kimi, iyunun 21-də Zəngəzur və Dərələyəz ellərinin beşaddımlığındakı Batabat yaylağında qurulmuş 11 Qərbi Azərbaycan çadırının ətrafında yerə-göyə səs salan təntənə aşırımın o biri üzündəki məğlub xəyanətkarların qulaqlarında soydaşlarımızın doğma yurdlarına qayıdışının rəmzi zəngi kimi səsləndi. Ətraf yüksəkliklərə qalanan Ulu Dədə Qorqud zamanlarına məxsus 3 gur xəbərdarlıq tonqalı festival-konqresə start verməklə, hərəkatın uğurlu sabahına işıq salmaqla növbəti haqq mübarizəmizə hamıda möhkəm inam yaratdı. Bütün günü davam edən çal-çağır düşmənçilikdən əl çəkməyənlərə "Dəmir yumruq" xatırlatması oldu.






Qədim oğuzların yaylaq toy-düyünlərini xatırladan bu möhtəşəm törənin səhərisi Naxçıvan Dövlət Universitetində təşkil edilmiş elmi sessiyaların, ölkənin tanınmış siyyasət, elm, təhsil, mədəniyyət xadimlərinin Ordubad rayonunda məskunlaşmış qaçqınlarla görüşü, sonda festival-konqres iştirakçılarının Zəngəzur dəhlizinə doğru rəmzi yürüşünün sorağı və güclü əks-sədası da o saatlarda bütün dünyaya yayıldı. Builki festival-konqres Qərbi Azərbaycana qayıdış hərəkatında xalqımızın haqlı mövqeyini və qətiyyətini bir daha beynəlxalq aləmə nümayiş etdirdi.

Yüksək təbiət səhnəsi olan Batabat yalağında qurulmuş 11 Qərbi Azərbaycan mahalı çadırının (İrəvan, Sərdarabad, Vedibasar, Dərələyəz, Göyçə, Zəngəzur, Kərbibasar, Qırxbulaq, Zəngibasar, Dilican, Şörəyel) əks etdirdiyi milli-mənəvi dəyərlər və panel müzakirələrində təqdim edilən yeni tədqiqatlar, iştirakçıların bitib-tükənməyə ön duyğu-düşüncələri barədə silsilə yazıları XQ-nin Qərbi Azərbaycan səhifələrində oxuculara çatdıracağıq. Bu mənada, festival-konqres ötən il olduğu kimi, bu dəfə də qəzetimiz üçün xeyli yeni mövzu verdi.

***Tahir AYDINOĞLU,***
***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

**Həkim məsləhəti**

# İsti hava, maqnit burulğanı xəstə və biganələri hədəfə alır

## Təbiətin bu "hücumu"ndan necə qorunaq?



**Yer kürəsini son illərdə tez-tez maqnit qasırğası bürüyür. Dünyada olduğu kimi, ölkəmizdə də bəzi insanlar bunun təsirini az, digərləri isə xəstəlik dərəcəsində hiss edirlər. Maqnit burulğanları olan günlərdə kimlərinsə halsızlığa, narahatlığa tab gətirməyib yatağa düşdükləri də müşahidə edilir.**

Mütəxəssislərin fikrincə, iyunun ilk maqnit qasırğası ayın 1-də başlayıb və 3 gün davam edib. Maqnit qasırğasının gücü 3–4 bal arasında dəyişib. Hava şəraitindən asılı olan insanların səhhətlərində ürəkbulanma, qan təzyiqinin yüksəlməsi, baş ağrıları kimi narahatlıqlar müşahidə edilib. 2-ci maqnit qasırğası iyunun 9-dan 12-dək davam edib. 4 bal gücündə olan həmin qasırğa təkcə meteohəssas qruplara deyil, tamamilə sağlam insanlara da təsir edib.

Ayın 3-cü maqnit qasırğası isə 2 gün–28-dən 29-dək davam edəcək, gücü 3 bal olacaq. Maqnit qasırğalarının mənfi təsirini minimuma endirmək üçün insanlara mümkün qədər tez-tez təmiz havada vaxt keçirmələri, kifayət qədər maye qəbul etmələri və sağlam həyat tərzinə əməl etmələri, alkoqol, nikotin və zərərli qidalardan uzaq olmaları tövsiyə edilir.

**Türkiyənin məşhur Cərrahpaşa Universiteti tibb fakültəsinin dekanı, professor Mustafa Sait Gönən maqnit qasırğaları ilə bağlı açıqlamasında** ilk olaraq, isti havalarda zərurət olmadan saat 11:00–15:00 arasında çölə çıxmamağı tövsiyə edib. O, 2-ci ən mühüm məsələnin isə su içmək olduğunu bildirib. Susamayanda belə, isti havalarda gündə, ən azı, 2,5 litr su içilməlidir. Xüsusilə uşaqların, yaşlıların, ürək, şəkər və yüksək təzyiq kimi xroniki xəstəlikləri olanların diqqətli olmasını tövsiyə edən təbib isti havanın təsirindən xilas olmaq üçün tərkibində minerallar olan mayelərdən bol istifadə etməyin vacibliyini bildirib.

Mustafa bəy yay aylarında tərləmə səbəbi ilə bədəndə duz və mineral itkisinin baş verdiyini, buna görə də duzla bağlı hər hansı bir narahatlığı olmayanların itirdikləri duzu əvəzləmək üçün ayran kimi içkilər qəbul etmələrini tövsiyə edib: "Alkoqollu və qazlı içkilər sərinləmək məqsədilə istifadə edilməməlidir, çünki bunlar əvvəlcə soyutma effekti verir, sonra isə orqanizmin su itkisini artırır. Belə havalarda yüngül, sulu yeməklər qəbul edilməlidir. Xüsusilə yağlı, ağır yeməklərdən çəkinmək lazımdır. Desert əvəzinə meyvə məsləhət görülür".

Professor sərinləmək üçün tez-tez duş qəbul etməyi də tövsiyə edib: "Həddindən artıq istiyə məruz qalan insanın beynində termotənzimləmə mərkəzi dediyimiz temperaturun tənzimlənməsi mərkəzi pozulur. Çox isti və rütubətli havalarda 37 dərəcə ətrafında olan bədəndə istiliyin 40–41 dərəcəyə qədər yüksəlməsi mümkündür. Hərarətin bu səviyyəyə qalxması kifayət qədər riskli olub beyin hüceyrələrinə zərər verə bilər. Həddindən artıq istiyə məruz qalan insanın beynində termorequlyasiya pozulduqda, günvurma deyilən ciddi sağlamlıq problemi yaranır. Yüksək hərarət, tərləmə qabiliyyətinin olmaması, baş ağrısı, başgicəllənmə, qusma, ürəkbulanma və dəri quruluğu günvurma simptomlarıdır".

M.Gönən bu hallarla üzləşdikdə dərhal xəstəxanaya müraciət etməyin vacib olduğunu deyib və isti havalarda istifadə edilən kondisionerlərin yaratdığı təhlükəyə də diqqət çəkib. Gecə yatarkən kondisionerdən istifadə etmək əvəzinə, küləyin içəri keçməsi üçün qapı-pəncərələri açmağın daha yaxşı nəticə verdiyini vurğulayıb.

Azərbaycan mütəxəssisləri də isti havalarla bağlı əhaliyə lazımi xəbərdarlıqlar edirlər.

**Elmi-Tədqiqat Kardiologiya İnstitutunun ürəyin işemik xəstəlikləri şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mədinə Əzimova maqnit dalğalarının insan orqanizminə təsiri ilə bağlı XQ-yə açıqlamasında dedi:**

– İnsult, hipertoniya və infarkt kimi ürək-damar fəsadlarının, təxminən, 70 faizi məhz belə havalarda – maqnit burulğanları olan zaman baş verir. Tədqiqatçı alimlərin fikrincə, orqanizm instinktiv olaraq, maqnit sahəsinin dalğalanmalarını həyat üçün təhlükə kimi qəbul edir. Çünki bu, təzyiqin artmasına və digər simptomlara səbəb olur. Bunlar arasında ən çox rast gəlinənlər baş ağrısı, başgicəllənmə, kardiopalmus, təngənəfəslik, yorğunluq və ya əksinə, hiperaktivlik, asteniya (əzələ zəifliyi), sümüklərdə ağrılardır.

Bu əlamətlərin başvermə səbəbinə gəlincə, deyə bilərik ki, maqnit sahəsinin dalğalanmaları zamanı kapilyarlarda (kiçik damarlarda) qan axınına maneə yaranır və toxumalarda oksigen aclığı baş verir. Məhz qanda oksigen çatışmazlığından başgicəllənmə, ürək nahiyəsində ağrılar, gözlərin qaralması və şüurun itməsi əlamətləri yaranır.

Bundan başqa, oynaqlarda da ağrılar başlayır. Çünki xarici (atmosfer) təzyiqin azalması oynaqlarda daxili təzyiqi çoxaldır. Bu, oynaq kapsulunun və bağların uzanması ilə əlaqədardır və ağrıları artırır. İnsanlar, isti havalarda yuxu pozulmasından, depressiyadan, diqqətsizlikdən, əsəbilikdən, ümumi narahatlıqdan da şikayətlənirlər.

**Maqnit qasırğasının ən çox kimlərə təsir etdiyindən söz açan həkim dedi:**

– Əsasən, ürək xəstəliyi olan insanlar və qan təzyiqinin aşağı, yaxud yuxarılığından əziyyət çəkənlər maqnit fırtınasını daha tez hiss edirlər. Belə havalar təzyiqlə bağlı xroniki xəstəlikləri olan insanlara çox təsir edir. Elə insanlar var ki, havadan asılı olurlar. Belə ki, havanın dəyişəcəyini, yağış yağacağını öncədən hiss edirlər. Onlar da maqnit qasırğasından əziyyət çəkirlər.

Bundan başqa, hava dəyişikliyi hamilə qadınlara, körpələrə və yaşlılara da neqativ təsir göstərir. Onu da qeyd etməliyik ki, maqnit qasırğası havası təmiz, şəhərlərdən uzaq, kənd, dağ yerlərinin əhalisinə təsir etmir. Ondan əsasən, böyük şəhərlərin sakinləri əziyyət çəkir.

**Mədinə Əzimova, eyni zamanda, maqnit qasırğası baş verən günlərdə hansı tədbirlərin görülməli olduğundan da söhbət açdı:**

– Əvvəla, texniki avadanlıqlarla işləmə vaxtını azaltmaq lazımdır, çünki maqnit fırtınaları təkcə insanlara təsir etmir. Avtomobil sürənlər ehtiyatlı olsunlar, çünki maqnit qasırğaları zamanı konsentrasiya və diqqət azalır. Stress və emosional partlayışlardan çəkinmək lazımdır. Həddindən artıq yüklənməmək üçün az diqqət tələb edən işlə məşğul olmaq məsləhətdir. Həddindən artıq fiziki fəaliyyətdən imtina etmək, bunun əvəzinə, gimnastika ilə məşğul olmaq, daha çox gəzmək faydalıdır.

Ölkəmizdə yay vaxtı saat 12.00 ilə 16.00 arasında çöldə olmamaq faydalıdır. Bu, insanları Günəşin ultra-bənövşəyi şüalarından qoruyar. Tez-tez kontrastlı duş qəbul etmək, otağı mütəmadi olaraq havalandırmaq lazımdır. Zərərli, həddindən artıq duzlu və yağlı yeməklərdən, spirtli içkilərdən istifadə etməməli, meyvələrə, tərəvəzlərə, təzə sıxılmış şirələrə və suya üstünlük verilməlidir. Çox yemək bədən üçün əlavə yükdür. Yuxu cədvəli hazırlamaq, pərdələri bağlamaq, adi günlərdəkindən çox yatmaq tövsiyə olunur.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

25 İyun Azərbaycan Dənizçilərinin Peşə Bayramı Günüdür

# Xəzər Azərbaycanı dünyaya birləşdirən su yoludur



(əvvəli 1-ci səhifədə)

Azərbaycan Dəniz Gəmiçiliyinin əsası isə 1858-ci il mayın 21-də "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub. Donanmanın genişlənməsinin gəmi təmiri bazasının yaradılmasını zərurətə çevirdiyindən 1866-cı ildə "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin Bakıda mexaniki zavodunun bünövrəsi qoyulub. Sonrakı illərdə dənizlə daşınan yüklərin həcmi artdıqca Xəzər dənizinin sahillərində limanların da sayı çoxalıb, yeni körpülər inşa edilib, anbarlar tikilib, kranlar qurulub.

İllər ötdükcə gəmiçiliyin donanması ölkədə və xaricdə inşa edilmiş yeni tipli su nəqliyyatı vasitələri ilə zənginləşib. Xəzər dənizi ilə daşınan yüklərin atması ilə əlaqədar olaraq dənizçilərinin ixtiyarına "çay-dəniz" tipli tankerlər, pambıq, taxta-şalban və s. daşıyan gəmilər verilib. 1962-ci ildə Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış Elmi-Tədqiqat İnstitutu mütəxəssislərinin layihəsi əsasında Avropada ən böyük infrastruktur sayılan Bakı–Türkmənbaşı gəmi-bərə keçidi işə salınıb. 1960-cı ildən etibarən Azərbaycan Dəniz Gəmiçiliyinə məxsus gəmilər Volqa–Balt kanalı vasitəsilə dünya sularına çıxmağa başlayıb.

Hazırda Azərbaycan dənizçiliyinin vacib sahələrindən sayılan Xəzər Dəniz Neft Donanmasının da 75 ildən artıq bir dövrü əhatə edən tarixi şanlı səhifələrlə zəngindir. Xatırladaq ki, donanmanın əsası SSRİ Nazirlər Sovetinin 31 oktyabr 1949-cu il tarixli "Xəzərdə dəniz neft istehsalının inkişafı haqqında" sərəncamına əsasən "Azərneft" Birliyi, onun tərkibində isə SSRİ Neft Sənayesi Nazirliyinin 4 noyabr 1949-cu il tarixli əmrinə əsasən "Üzən vasitələr" idarəsnin yaradılması ilə qoyulub. Həmin dövrdə "Artyomneft" və "Stalinneft" dəniz qazma trestlərinin üzmə vasitələri yeni yaradılmış idarənin tərkibinə verilib. Bunlar əsas etibarilə "Transportnik", "Qəbələ", "BMK-90" tipli kiçik həcmli katerlər, özühərəkətetməyən 20 tonluq üzən kranlar və barjlar idi. SSRİ Neft Sənayesi Nazirliyinin 22 yanvar 1953-cü il tarixli əmri ilə "Üzən vasitələr" idarəsi "Xəzərdənizneftdonanma" idarəsinə çevrilib.

Azərbaycanda dəniz nəqliyyatının bugünkü uğurlu inkişafı isə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət quruculuğu sahəsində təkrarolunmaz istedada malik Ümummilli lider iqtisadiyyatımızın strateji cəhətdən mühüm sahələrindən biri olan dəniz nəqliyyatının inkişaf etdirilməsi istiqamətində misilsiz xidmətlər göstərib. Belə ki, SSRİ dağıldığı zaman bəzi müttəfiq respublikaların donanmaları böyük çətinliklərlə üzləşsə də, Azərbaycanda bu sahə Heydər Əliyevin qətiyyəti sayəsində qorunub saxlanılıb. Ötən müddətdə ölkəmizin dəniz nəqliyyatı sektorunda əsaslı islahatlar həyata keçirilib. Müstəqilliyimizin ilk illərində Azərbaycanda böyük neft layihələrinin, o cümlədən "Əsrin müqaviləsi"nin uğurla icrası, Xəzər dənizində dünya səviyyəli infrastruktur obyektlərinin yaradılması məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olub.

Ulu öndərin Azərbaycanda dəniz nəqliyyatının inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər, ölkə iqtisadiyyatının bu vacib sahəsinə göstərdiyi diqqət və qayğı hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublikamızda iqtisadiyyatın bütün sahələri ilə yanaşı, dəniz nəqliyyatının da sürətli inkişafı, bu sahədə təhlükəsizliyin artırılması və dəniz mühitinin qorunub saxlanması, eləcə də dövlətimizin tranzit nəqliyyat dəhlizlərinin formalaşmasında fəal iştirakı Prezident İlham Əliyevin gərgin əməyinin nəticəsidir. Məhz dövlətimizin başçısının tapşırıq və tövsiyələri əsasında ötən müddətdə Azərbaycanın dəniz nəqliyyatı ilə yük daşımalarında rəqabətədavamlı, təhlükəsiz və çevik sistem yaradılıb, bu məqsədlə müasir dəniz limanları, Bakı Gəmiqayırma Zavodu inşa edilib, gəmi təmiri müəssisələrinin işi daha da təkmilləşdirilib.

Ölkəmizin dəniz nəqliyyatının şanlı ənənələrini uğurla davam etdirən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (ASCO) Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında 22 oktyabr 2013-cü il tarixli və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında 10 yanvar 2014-cü il tarixli sərəncamlarına əsasən, ölkədə mövcud olan iki böyük donanmanın – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması yolu ilə yaradılıb.

Qurumun tərkibinə nəqliyyat donanması ilə yanaşı, ixtisaslaşdırılmış donanma və gəmi təmiri zavodları daxildir. Nəqliyyat donanmasının balansında 52 gəmi, o cümlədən 21 tanker, 13 gəmi-bərə, 14 universal quru yük gəmisi, 2 Ro-Ro tipli gəmi, 2 Ro-Pax tipli gəmi var. İxtisaslaşdırılmış donanma isə 192 gəmidən, o cümlədən 20 kran, 20 təchizat-yedək, 23 sərnişin, 2 borudüzən, 5 yanğınsöndürən, 5 mühəndis-geoloji, 9 dalğıc, 108 xidməti və köməkçi gəmidən ibarətdir.

Hazırda respublikamızda fəaliyyət göstərən dənizçilik şirkətlərində, limanlarda, gəmi təmiri və inşası müəssisələrində, habelə dənizçilərin hazırlanmasını həyata keçirən tədris müəssisələrində, ümumilikdə, 20 min nəfərdən çox dənizçi çalışır. Hər il peşə bayramı ərəfəsində onların əməyi dövlət tərəfindən lazımınca qiymətləndirilir, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə bir qrup dənizçi "Əməkdar mühəndis" fəxri adına layiq görülür, "Tərəqqi" medalı ilə təltif edilir.

Dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuş dəniz nəqliyyatı işçiləri də qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün Xəzərdə və kənar hövzələrdə rəqabətədavamlı və beynəlxalq standartlara uyğun dəniz xidmətləri göstərən nüfuzlu və çevik gəmiçilik şirkəti qurmaq, kommersiya baxımından səmərəli fəaliyyəti təmin etmək, Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsinə əhəmiyyətli töhfə vermək, eləcə də gəmiçilik sahəsində yüksəkixtisaslı yerli kadrların formalaşmasına nail olmaq əzmindədirlər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Baykal – ən dərin göl

## O, kosmosdan baxanda nəhəng ayparanı xatırladır

**Yer kürəsinin ən böyük şirinsulu gölü olan Baykalın dərinliyi 1642 metrə çatır (Xatırladaq ki, Xəzər dənizinin ən dərin nöqtəsi 1025 metrdir). Şərqi Sibirin cənubunda yerləşən tektonik mənşəli bu gölün təxminən 25 milyon il bundan əvvəl yarandığı ehtimal olunur.**



XIX əsrin məşhur Sibir tədqiqatçısı, coğrafiyaçı, geoloq, belarus əsilli alim – İvan Çerski yazırdı ki, Baykal gölünə 336 çay axır. Son zamanlar isə bəzi mənbələrdə göstərilir ki, gölə 540-dan çox çay tökülür. Bu dürüstləşdirmənin müəllifləri öz arqumentlərini əsaslandırmaq üçün Baykala axan böyük çaylara tökülən kiçik çayların çox olduğunu söyləyirlər.

Böyük çaylar isə Selenqa, Yuxarı Anqara, Barquzin, Turka, Qarlı çay, Kiçera, Tıya, Qoloustnaya və Buquldeyka çaylarıdır. Göldən axıb gedən çay isə ancaq Aşağı Anqaradır. Müqayisə üçün bildirək ki, Xəzər dənizinə 130-dan çox çay axır. Onlardan ancaq doqquzunun mənsəbi delta xarakterlidir. Yəni qalan çaylar bir-birinə qarışaraq dənizə axır.

Rusiya Federasiyasının İrkutsk vilayəti və Buryatiya Respublikasının sərhədində – Asiyanın mərkəzində yerləşən bu gölün kosmosdan görüntüsü nəhəng ayparanı xatırladır. Gölün dibinin dərin hissələri dünya okeanı səviyyəsindən 1187 metr aşağıda, suyun səthi isə dəniz səviyyəsindən 456-457 metr hündürlükdədir.

Rusiya Federasiyası Hidrotexniki Qurğular və Dövlət Su Kadastrının Registr Mərkəzinin direktoru Sergey Bednarukun fikrincə, 31722 kvadratkilometr səthə malik olan Baykal gölünün ərazisi Belçika və ya Niderland ölkələrinin ərazisinə bərabərdir. Gölün səthi böyüklüyünə görə dünyanın böyük gölləri arasında yeddinci yerdədir. Şirinsulu göllərin isə ən böyüyüdür.

Baykalı cazibədar edən faktlardan biri də onun bütün tərəflərdən dağ silsilələri ilə əhatə olunmasıdır. Bu göl şirin su ehtiyatlarına görə də dünyada birinci yerdədir. Hətta, Şimali Amerikanın Miçiqan, Quron, Yuxarı, Eri və Ontario adlı beş gölünün birlikdə olan su tutumu Baykalın su tutumundan azdır. Bu göstəriciyə görə Baykal ancaq Xəzərdən geridə qalır.

Baykalın suyunun şəffaflığından məmnun olan turistlər yazırlar ki, hətta suyun 40 metr dərinliyində olan daşları da aydın şəkildə saymaq olar. Təbii ki, bu hala yazda rast gəlmək olur. Yayda və payızda – Günəşin suyu isitdiyi aylarda Baykalda bitki və canlılar o qədər fəallaşırlar ki, su mavi-yaşıl və daha çox yaşıl rəngdə görünür.

Bu göldə 27 ada var. Onlardan 12-si böyük adalar sırasındadır. O da məlumdur ki, Baykalın ərazisi yüksək seysmik zonaya daxildir. Burada az qala hər gün bir-iki ballıq zəlzələ olur. Ancaq 1862-ci ildə 10 ballıq zəlzələ qeydə alınmış, Selenqa çayının deltasında 200 kvadratkilometrlik ərazi su altında qalmışdı. Elə Baykal sözü də buryat dilində odpüskürən dağ mənasını verir. Sonda onu da əlavə edək ki, Baykalda 2630 növ heyvan və su bitkiləri mövcuddur. Hazırda bu gölün sahillərində 100 min nəfərin yaşadığı 85 yaşayış məntəqəsi var.

***İttifaq MİRZƏBƏYLİ***

Günün müsahibəsi

**Ölkəmizdə torpaq ehtiyatlarının sıradan çıxmasının qarşısının alınması çox əhəmiyyətlidir. Çünki kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin yox olması gələcəkdə əhalinin ərzaqla təminatında ciddi problemlər yarada bilər. Müsahibimiz AMEA Coğrafiya İnstitutunun şöbə müdri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent İsmayıl Quliyevdir:**

– Azərbaycanın əhalisi 10 milyon nəfəri ötüb. Torpaq sahəmiz isə 8,6 milyon hektardır. Onun əkinə yararlı sahəsi struktur dəyişikliyi səbəbindən azalır. Buna əhalinin artması, tikinti sahələrinin, infrastrukturun genişlənməsi, sənayenin inkişafı təsir edir. İkincisi, qlobal miqyasda baş verən səhralaşma prosesləri torpaqların ümumi münbitliyinə təsir edir, torpaq əmələgəlmə prosesini pozur, bioloji və iqtisadi məhsuldarlığı azaldır. Beləliklə, əhalinin sayı artsa da, münbit torpaq sahələri azalır. Nəticədə, istehsal ilə istehlak arasında balans pozulur. Yəni istehsal azalır, tələbat isə artır. Bu sahədə Azərbaycanda 1 milyon 738 min 940 ədəd avtomobil var. Onun da 70 faizdən çoxu paytaxtda istifadə edilir. Ona görə də, avtomobilləri işlədərkən atmoosferə atılan tullantılar, xüsusilə də bir sıra elementlər, ağır metallar yol kənarında torpaqları çirikləndirir, istifadəyə yararsız vəziyyətə salır.

Çirklənmə prosesi elə bir prosesdir ki, bəzən yağıntı və müəyyən suvarma vasitəsilə qrunt sularına keçir, onları da çirkləndirir. Ona görə də, insanlar bu ekoloji məsələlərə qayğı ilə yanaşmalıdır ki, gələcəkdə fəlakətə gətirib çıxarmasın.

**– İsmayıl müəllim, Abşeron yarımadasında torpağın münbitliyini artırmaq məqsədilə Şamaxı, Cəlilabad və digər rayonlardan bura qara torpaq gətirilir. Bəzən də neftlə çirklənmiş əraziyə torpaq töküb ağac əkirlər. Bu nə dərəcədə səmərəlidir?**

# Abşeron: torpağın nəfəsi niyə təngiyir?



də ölkəmizdə ən ağır vəziyyət Abşeron yarımadasında yaranıb.

**– Abşeron yarımadasının başlıca problemlərindən biri torpaqların çirklənməsi ilə bağlıdır. Bunun əsas səbəbləri hansılardır?**

– Ölkə əhalisinin təqribən 40, sənaye potensialının isə 70-80 faizi Abşeron yarımadasında cəmləşib. Ekoloji problemlərin əksər hissəsi bu ərazidə mövcuddur. Onlardan biri də torpaqların çirklənməsidir. Yarımadada hasilatın uzun müddət bəsit texnika və texnologiyalarla aparılması, qazma, istismar və təmir zamanı baş verən çoxsaylı qəzalar, açıq neft, qaz, su fontanları nəticəsində mədən əraziləri həddən artıq çirklənməyə məruz qalıb, süni gölməçələrin sayı artıb və mövcud göllərin sahəsi xeyli genişlənib. Bunun nəticəsidir ki, Azərbaycan müstəqillik qazananda bizə 33 min hektardan artıq yararsız, o cümlədən 10 min hektar neftlə çiriklənmiş torpaqlar miras qalıb. Bax, bu torpaqlar 1,5–2 metr qalınlığında neft tullantıları ilə çiriklənmişdi.

Halbuki həmin torpaq sahələri istifadə üçün yararlı olsa idi, paytaxtın ərzaq məhsulları ilə təminatında önəmli rol oynaya bilərdi. Unutmayaq ki, hazırda Abşeron yarımadasında təqribən 3 milyon əhali yaşayır.

Abşeronun neft və neft məhsulları ilə ən çox çirklənmiş torpaq sahələri isə Qaradağ, Binəqədi, Sabunçu, Suraxanı, Əzizbəyov və Səbail rayonlarının əraziləridir. Yarımadada ekoloji problemləri yaradan əsas səbəblərdən biri də uzun illər neft-qaz hasilatı və qazma işləri zamanı torpaqların lay suları ilə çirkləndirilməsi, lay sularının idarə olunmaması səbəbindən neftlə çirklənmiş süni göllərin və



gölməçələrin əmələ gəlməsidir. Nəticədə tullantı suları ilə birlikdə su hövzələrinə neft məhsulları, sulfat birləşmələri, xlorid duzları, səthi aktiv maddələr, fenol və müxtəlif ağır metallar atılıb.

**– Belə aydın olur ki, Abşeron yarımadasında torpaqların çirklənməsi texnogen təsirin nəticəsində yaranır. Bəs torpaqların sıradan çıxmasında başqa səbəblər də varmı?**

– Bəli, düz qeyd etdiniz. Bu çirklənmələr texnogen təsirin nəticəsində yaranır. İstər-istəməz elmi-texniki inkişaf nəticəsində torpaqlar çiriklənməyə məruz qalır. Yuxarıda qeyd etdiyim səbəblər tam deyil. Məsələn, bura həm də küləkli ərazidir. İkinci bir tərəfdən ərazidə torpaqların şoranlaşması gedir. Külək istər-istəməz torpağın kiçik hissəciklərini bir yerdən başqa yerə daşıyır. Beləliklə, külək şoranlaşmış ərazilərdən həmin fraksiyaları başqa bir əraziyə yığır. Nəticədə həmin ərazidə də torpaq şoranlaşmaya məruz qalır.

Bundan başqa, Abşeron yarımadada torpaqları atmosfer çöküntüləri də sıradan çıxarır. Yuxarıda qeyd etdiyimiz kimi, ölkə sənayesinin 80 faizə yaxını Abşeron yarımadasında yerləşir. Müəssisələrdən tüstü ilə zərərli qazlar, tullantılar havaya buraxılır. Sonra isə bu maddəllər atmosferdən torpağa çökür. Bildiyiniz kimi Abşeron yarımadası avtomobillərlə də olduqca yüklənib. Məsələn, 2024-cü ilin əvvəlinə aid olan məlumata əsasən,

– Rekultivasiyaya (torpaqların məhsuldarlığını bərpa etmək) üçün kompleks tədbirlər gərək dəqiq aparılsın. Bəzən görürsən ki, neftlə çirklənmiş əraziyə torpaq töküb yaşıllıq salırlar. Əvvəlcə ağaclar normal bitir, amma onun kökü neftlə çirklənmiş qata çatanda inkişaf dayanır və qurumağa başlayır. Ona görə də, çirklənmiş qat tam götürülməli, bundan sonra düzgün qaydada torpaq tökülməlidir.

Bu qayda texniki rekultivasiya adlanır və bundan sonra biologi rekultivasiyaya, yəni bitkilərin əkilməsi həyata keçirilməlidir. Hər bitkini də əkmək olmaz. Abşeron yarımadası yarımmsəhra, hətta səhra şəraitindədir. Ona görə də, buranın iqliminə uyğun bitkilərin əkilməsi məqsədəuyğundur. Badam, zeytun, üzüm və əncir kimi ağaclar buranın iqlim şəraitinə uyğulaşan bitkilərdir.

Abşeron yarımadasında yaşayan insanlar bəzən ölkəmizin digər regionlarından həyətyanı sahələrinə torpaq gətirirlər. Məlumdur ki, meşə zonasının torpağı Abşeron yarımadasında inkişaf edə bilməyəcək, ölü vəziyyətdə qalacaq. Bir müddət keçəndən sonra (10-15 il) tamamilə yararsız vəziyyətə düşəcək və boz səhra torpaqlarına çevriləcək. Torpaqəmələ gəlmə prosesi dayanacaq.

Burada bir yol var, insan gərək təsərrüfat fəaliyyətini düzgün istiqamətləndirsin. Unutmayaq ki, hər bir zonanın özünə məxsus torpağı və həmin zonanın iqliminə, relyefinə uyğun da bitkiləri var.

**–İsmayıl müəllim, yuxarıda qeyd etdiyiniz problemin həlli istiqamətində nə kimi işlər görülür?**

– Abşeron yarımadasının ekoloji problemi vaxtında həll olunmalıdır. Əks halda bizi gələcəkdə böyük təhlükə gözləyir. Vaxtında tədbirlər görülməlidir, görülür də. Bakı Buxtasının, Bibi Heybət zonasının, H.Əliyev adına Beynəlxalq Hava Limanının ətrafının, Abşeron yarımadasının göllərinin, neftlə çirklənmiş torpaqların, lay suları altında qalmış sahələrin və digər istehsal tullantıları ilə çirklənmiş ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, bərk məişət tullantılarının idarə olunması istiqamətində tədbirlər həyata keçirilib və bu sahədə lazımı işlər davam etdirilir.

Sumqayıt şəhərinin ətraf mühitinin ciddi çirklənməsinə səbəb olan 56 min 422 kubmetr civə tərkibli toksiki tullantılar Təhlükəli tullantılar poliqonuna daşınaraq zərərsizləşdirilib.

"Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" və "Bakı şəhərinin yaşıllaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncamların icrası ilə əlaqədar olaraq yolların estetik görünüşünün yaxşılaşdırılması və mühafizə zolaqlarının eroziyadan mühafizəsi məqsədilə Ələt–Hacıqabul istiqamətində magistral yolu ətrafında ağac-kollar əkilib. Oxşar nəticələr Bakının Heydər Əliyev Hava Limanı ilə birləşdirən yollarda da əldə edilib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Bakı və onun ətrafında ağacın əkilməsi barədə təşəbbüsü ilə əlaqədar genişmiqyaslı işlər aparılıb. Bayıl yamacı– 20-ci sahə arası, Zığ gölü – Heydər Əliyev Limanı arası ərazilərin, Zığ gölü və ətrafının, həmçinin Səngəçal ətrafının yaşıllaşdırılması layihələri həyata keçirilib.

Xüsusilə də Abşeron yarımadasının şimal və şərq hissələrində, Qala, Hövsan və Dübəndi yaşayış məntəqələri yaxınlığında zeytun, püstə-badam plantasiyaları salınıb. Hazırda bu bağlar bol məhsul verir. Hələ bu sahədə çox işlər görülməlidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Dağıstanda ikiqat terror aksiyası

**İyunun 23-də axşam Dağıstanda ikiqat terror aktı törədilib: yaraqlılar eyni vaxtda Mahaçqala və Dərbəndə hücum ediblər. Terrorçular iki pravoslav kilsəsini, sinaqoqu və yol polisi postunu hədəfə alıblar. Hücum zamanı arasında yüksək rütbəli məmurun qohumlarının da olduğu yaraqlılar şiddətli müqavimət göstərib və bir neçə saat ərzində polislə atışıblar. Terror aktlarının qurbanları yaşlı keşiş, məbədin mühafizəçisi və hüquq-mühafizə orqanının 19 əməkdaşı, o cümlədən Dağıstan İşıqları şəhərinin polis rəisi olub.**

Silahlı şəxslərin hücumu ilə bağlı ilk xəbərlər bazar günü saat 18:00 radələrində yayılmağa başlayıb. Həmin vaxt Dərbənddə silahlılar avtomat silahlarla Lenin küçəsində yerləşən Müqəddəs Məryəm pravoslav kilsəsinə hücum ediblər. Hücum zamanı kilsədə Müqəddəs Üçlüyün şərəfinə mərasim gedirmiş. Şahidlərin sözlərinə görə, yaraqlılar içəri girərək, yalnız qaz tapançası ilə silahlanmış mühafizəçi Mixaili güllələyiblər, daha sonra isə 66 yaşlı rahib Nikolay Kotelnikova bıçaqla hücum edərək, onu qətlə yetiriblər.

Dərbənddə yaraqlıların digər hədəfi yerli sinaqoq olub: o, yandırılıb və alov tez bir zamanda bütün binanı bürüyüb. Təxminən eyni vaxtda Mahaçqalada Yermoşkina küçəsində yol polisi postuna hücum edilib – bir polis həlak olub, daha altısı yaralanıb. Bundan sonra Dərbənd və Mahaçqala polisi yaraqlıların axtarışına və məhv edilməsinə başlayıb. Mahaçqalada pravoslav kilsəsinin bilavasitə yaxınlığında polislə atışma olub, kilsəyə ayinə gələnlər də yaxınlıqda barrikada qurublar. Buna görə də bir sıra Telegram kanallarında həmin şəxslərin yaraqlıların girovuna çevrildiyi barədə mesajlar yayıldı. Sonradan bu məlumat Dağıstan polisi tərəfindən təkzib edildi. Səhər saat 2-dən sonra Dağıstanın rəhbəri Sergey Melikov terror aktı nəticəsində 15-dən çox polis əməkdaşının, eləcə də bir neçə mülki şəxsin həlak olduğunu açıqladı. İyunun 24-də məlum oldu ki, həlak olanlarının sayı 19 nəfərə çatıb.



Dağıstanın rəhbəri Sergey Melikov bildirib ki, bölgədə operativ qərargah yaradılıb, həmçinin yerli sakinləri sakit olmağa və panikaya düşməməyə çağırıb. Bununla yanaşı, Dağıstan Respublikasının Daxili İşlər Nazirliyi bəyan edib ki, Mahaçqalada hüquq-mühafizə orqanlarının əməkdaşları 3-ü qohum olmaqla 4 silahlını məhv ediblər. Dağıstanın rəhbəri Sergey Melikov da Dağıstanda keçirilən antiterror əməliyyatı zamanı 6 yaraqlının məhv edildiyini açıqlayıb. "RİA Novosti" yazır ki, Dağıstanda məhv edilən yaraqlılardan biri "Ədalətli Rusiya – Vətənpərvərlər – Həqiqət naminə" partiyasının regional bölməsinin rəhbəri olub. Əli Zəkariqayevin Serqokalinski rayonunda partiya şöbəsinin sədri olduğu, iki il əvvəl bu vəzifəni tərk etdiyi bildirilir. Hüquq-mühafizə orqanlarının "RİA Novosti"-yə verdiyi məlumata görə, hücum edənlərdən birinin adı Əli Zəkariqayevdir.

Mahaçqalada məhv edilən yaraqlılar arasında Dağıstanın Serqokalinski rayonunun rəhbəri Maqomed Ömərovun oğulları Osman və Adil Ömərovlar, həmçinin onun qardaşı oğlu da var. Bu xəbərlər çıxandan dərhal sonra Ömərov istefa verib. Bundan sonra polis M.Ömərovu saxlamaq üçün Serqokalı kəndinə gedib. Kəndin mərkəzindəki meydanda hüquq-mühafizə orqanlarının əməkdaşlarının olduğu avtomobil naməlum şəxslər tərəfindən atəşə tutulub, polislərdən biri yaralanıb. Lakin bu hadisəyə baxmayaraq, Ömərov hələ də saxlanılıb – Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) əməkdaşları onu dindirməyə başlayıb və məmurun evində axtarış aparılıb.

Dağıstan şəhərlərinə edilən hücumlara görə məsuliyyəti heç kim üzərinə götürməyib. Lakin hüquq-mühafizə orqanlarındakı mənbənin sözlərinə görə, hücum edənlərin beynəlxalq terror təşkilatı ilə əlaqəsi ola bilər. Mənbənin sözlərinə görə, Rusiya FTX-nin Konstitusiya quruluşunun qorunması və terrorizmlə mübarizə xidmətinin əməkdaşları yaxın vaxtlarda Dağıstana uçacaqlar. Təhlükəsizlik rəsmiləri hücumların əvvəlcədən planlaşdırıldığını, xüsusən də pravoslav kilsələrinə hücumların əsas pravoslav bayramı olan Müqəddəs Üçlük Gününə təsadüf etdiyini ehtimal edir.

RBK-nin hüquq-mühafizə orqanlarındakı mənbəsi isə bildirib ki, hücum edənlərdən bir neçəsi Daxili İşlər Nazirliyinin məlumat bazalarında vəhhabi dairələri ilə əlaqəsi olan şəxslər kimi qeyd edilib.

Məlumdur ki, Dərbənd və Mahaçqalaya hücum edən terrorçular başqa silahlarla yanaşı, xarici silahlardan, o cümlədən AR-15 tüfəngindən istifadə ediblər. Bu tüfəng bir çox modifikasiyaya malikdir və kütləvi qətllər törətmək üçün seçilən silah olması ilə məşhurdur. Qeyd edək ki, Dağıstanda baş verən bu hücumlar son 12 ildə respublikada baş verən ilk ciddi terror aktıdır. Bundan əvvəlki oxşar hadisə 2012-ci ilin mayında Mahaçqalada baş vermişdi. Daha sonra polis postunda baş verən iki partlayış nəticəsində 13 nəfər ölmüş, 120-dən çox insan yaralanmışdı.

Rusiya Prezidenti Vladimir Putin Dağıstanda cinayətkarların silahlı hücumu nəticəsində yaralananlara və yaxınlarını itirənlərə dərin hüznlə başsağlığı verib. Bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib: "Prezident hər kəsə dərin hüznlə başsağlığı verir: raket hücumu nəticəsində Krımda öz yaxınlarını itirənlərə, Dağıstanda həlak olanların qohumlarına və yaxınlarına".

Bundan başqa, D.Peskov bildirib ki, Kreml Dağıstandakı terror aktı fonunda 2000-ci illərin vəziyyətinə qayıtmaqdan qorxmur. "Yox. İndi Rusiya fərqlidir, cəmiyyət tamamilə möhkəmlənib və dünən (srağagün-red.) Dağıstanda gördüyümüz kimi cinayətkar terror təzahürləri nə Rusiyanın özündə, nə də Dağıstanda cəmiyyət tərəfindən dəstəklənir",– deyə Peskov bildirib.

Rusiya KİV-i yazır ki, iyunun 24-də səhər saatlarında Mahaçqala və Dağıstanda silahlıların hücumlarından sonra tətbiq edilən əks-terror əməliyyatı rejimi ləğv edilib. Dağıstanda üç günlük matəm elan edilib. Azərbaycan Prezidenti İlham Əliyev Dağıstanda törədilmiş terror aktları nəticəsində dinc vətəndaşların və hüquq-mühafizə orqanlarının əməkdaşlarının həlak olması ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə və Rusiyanın Dağıstan Respublikasının rəhbəri Sergey Məlikova başsağlığı verib.

***S.ELAY***
***XQ***

XQ-nin qonaqları

# "Aktaudan Bakıya salam gətirmişik"

**Bu günlərdə Qazaxıstanın Manqistau Vilayəti ictimaiyyətinin bir qrup fəalı Bakıda olub. Nümayəndə heyətinin üzvü, Manqistau Xalq Assambleyasının sədri, Mediasiya Şurasının rəhbəri, Ağbirçəklər Şurasının katibi Amangül Jaylxanova "Xalq qəzeti"nin qonağı olaraq ölkəmizə səfəri, keçirdiyi görüşlərlə bağlı müsahibə verib:**

**– Amangül xanım, əvvəlcə səfərinizin məqsəd və məramı ilə bağlı məlumat verərdiniz.**

– İlk olaraq Aktaudan Bakıya salam gətirmişik. Türkdilli dövlətləri və xalqları ta qədimdən ümumi tarix, ortaq mədəniyyət birləşdirir. Ümumtürk mədəniyyətinin müasir dövrdə də qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi üçün birgə təbliğat və təşviqat vacibdir. Azərbaycana səfərimizdə məqsədimiz ölkələrimiz və xalqlarımız arasındakı mövcud mehriban münasibətləri daha da genişləndirməkdir.

Bildiyimiz kimi, 15 may Beynəlxalq Ailə Günü kimi qeyd edilir. Bununla bağlı Aktau şəhərində Manqistau televiziyasında "Ata və oğul" müsabiqəsini keçirdik. Layihənin təşkilində məqsəd ailə dəyərlərinin qorunması, qazax xalqının mədəniyyəti və ənənələrinin nəsildən-nəslə ötürülməsi idi. Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş Konsulluğu layihəyə dəstək verdi. Dəstəyə və diqqətə görə Baş Konsulluğun başçısı cənab Elçin Məmmədova minnətdarıq. Manqistaudan 30 ailənin iştirak etdiyi onlayn müsabiqədə Aycan Latipov və oğlu qalib oldular. Qərara alındı ki, layihə iştirakçıları və münsiflər heyətinin Bakıya turu təşkil edilsin.

**– Səfər çərçivəsində Bakının tarixi və görməli yerlərini də ziyarət etmisiniz. Şəhərimizlə bağlı təəssüratlarınız necədir?**

– Bakının Avropa şəhərinə xas olan heyrətamiz arxitekturası bizi heyran etdi. Şəhərinizin turistik və görməli yerləri – muzey və qoruqlar, parklar, xiyabanlar, teatr, kinoteatrlar, konsert zalları, habelə ibadət yerləri, idman arenaları çox gözəldir. O cümlədən Heydər Əliyev Mərkəzində olduq. Burada yaradılan Heydər Əliyev Muzeyində Ulu öndərə aid maraqlı faktlar, foto və digər nadir eksponatlarla tanışlıq bizdə xoş hisslər oyatdı. Heydər Əliyevin türk dünyasının birliyi naminə gördüyü böyük işlər heç vaxt unudulmayacaq. Təsadüfi deyil ki, bu gün onun adı türk toplumlarında da hörmətlə anılır, türk dövlətlərinin inteqrasiyasında rolu məmnunluqla qeyd olunur.

Qobustanı ziyarət sanki bizi keçmişə apardı. Qədim dövrlərdən orta əsrlərə qədər insanların məskunlaşdıqları mağaralar, eramızdan əvvəllərə aid qayaüstü təsvirlər, musiqili daşlarla tanışlıq bizdə unudulmaz təəssüratlar yaratdı.

**– Bakıda keçirdiyiniz görüşlərlə bağlı məlumat verərdiniz. Əsasən, hansı mövzular müzakirə edildi?**

– Vilayətin Ağsaqqallar və Xalq Nəzarəti Şurasının sədri Onaybek Abdilovla bir sıra görüşlərdə iştirak etdik. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindəki görüşdə müxtəlif layihələrdən danışdıq. Təcrübə mübadiləsi apardıq. Daha sonra Mediasiya Şurasında olduq. Ölkələrimizdə aparılan mediasiya islahatlarının icrasında mediasiya təşkilatlarının rolu müzakirə olundu. Cəmiyyətdə sosial barışa töhfə verilməsi istiqamətində mübahisələrin alternativ həll yolu kimi mediasiyanın əhəmiyyəti vurğulandı. Ölkənizdə bütün regionlarda mediasiya təşkilatlarının fəaliyyət göstərməsi yaxşı haldır. Qazaxıstanda da bu istiqamətdə əhəmiyyətli işlər görülür. Mən özüm etnomediasiya sahəsində fəaliyyət göstərirəm. Millətlərarası münaqişələri adi vasitəçi həll edə bilməz. Çünki müxtəlif etnik qrupların nümayəndələri arasında fikir ayrılığı cəmiyyətdə təhlükəsizliyə və asayişə birbaşa təhlükə yaradan münaqişəyə gətirib çıxara bilər. Bu istiqamətdə də Azərbaycanda çox gözəl işlər görülüb. Təcrübə mübadiləsi etdik. Onu da qeyd edim ki, Astanada iyulda mediasiya ilə bağlı beynəlxalq layihə olaraq tədbir keçiriləcək. Tədbirə Türk ölkələrindən, eləcə də, Azərbaycandan mediatorlar dəvət olunub.



Azərbaycan Ağsaqqallar Şurasının rəhbərliyi ilə görüş də çox maraqlı keçdi. Şuranın sədri, Milli Məclisin deputatı Eldar Quliyev regiondakı mövcud vəziyyət barədə ətraflı məlumat verdi, Azərbaycanın hər zaman sülh tərəfdarı olduğunu, sülh sazişinin imzalanması istiqamətində səylərini davam etdirdiyini bildirdi. Qeyd edildi ki, Azərbaycan 44 günlük Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə böyük miqyasda bərpa və quruculuq işləri aparır, insanlar mərhələli şəkildə öz doğma yurdlarına qayıdırlar. Qarabağda, Şərqi Zəngəzurda həyat 30 ildən sonra yenidən öz axarına qayıdır.

Sevindirici haldır ki, Azərbaycan Ağsaqqallar Şurası milli-mənəvi dəyərlərin qorunması işinə daim öz töhfəsini verməyə çalışır. Xalqlarımızın adət-ənənəsində ağsaqqal xeyir-duası həmişə böyük məna daşıyır. Bu gün ölkələrimizdə ailə, məişət zəminində, hətta cəmiyyətdə ictimai münasibətlərin tənzimlənməsində ağsaqqal sözünə hər zaman böyük ehtiyac olması milli-mənəvi dəyərlərimizin var olmasından xəbər verir.

Daha bir vacib görüş isə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova ilə keçirildi. Çox isti şəraitdə keçən görüşdə bir sıra məsələlər müzakirə edildi.

**– Gələn il Aktau türk dünyasının paytaxtı olacaq.**

– Ötən il Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" oldu. Aktau isə 2025-ci ildə türk dünyasının mədəniyyət paytaxtı olacaq. Bu barədə qərar TÜRKSOY-a üzv dövlətlərin Azərbaycanın Şuşa şəhərində keçirilən 40-cı toplantısında qəbul edilib. Belə tədbirlərin təşkili, türk dövlətləri arasında mədəni əlaqələrin möhkəmləndirilməsində önəmli addımdır. Gələn il həm də Qazaxıstan Xalq Assambleyasının yaradılmasının 30 illiyi qeyd ediləcək. Qazaxıstanda 130-a yaxın xalq və millətin nümayəndələri sabitlik və əmin-amanlıq şəraitində yaşayır. Ötən illər ərzində millətlərarası münasibətlərin sabit saxlanılması, xalqlar arasında dostluq və qardaşlığın möhkəmləndirilməsi istiqamətində Qazaxıstan Xalq Assambleyası böyük işlər görüb və bu proses böyük uğurla davam edir.

Səfər zamanı harada olduqsa, ümumi tarixi köklərimizə sıx bağlı olan adət-ənənələrlə qarşılaşdıq, milli-mənəvi dəyərlərimizə bağlılığımızı duyduq. Bizi var edən bu qiymətli dəyərləri hər zaman qorumalıyıq.

Dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında geniş əlaqələrin daha da inkişaf etməsinə böyük töhfə verir. Hazırda Azərbaycan və qazax xalqları arasında dostluq ildən-ilə möhkəmlənir. Hər iki ölkənin Prezidenti – Kasım - Jomart Tokayev və İlham Əliyev ölkələrimizin milli maraqlarına, xalqlarımızın birliyinə və xoşbəxtliyinə istiqamətlənən əməkdaşlığın genişləndirilməsinə böyük önəm verirlər.

Yüksələn xətlə inkişaf edən Azərbaycan–Qazaxıstan münasibətləri nəinki ölkələrimizin, bütün türk dünyasının maraqlarına uyğundur. Biz vətəndaş olaraq xalqlarımız arasında dostluq bağlarının möhkəmləndirilməsinə çalışmalı və onu daha da inkişaf etdirməliyik.

**Müsahibəni apardı:**
**Leyla QURBANOVA**
**XQ**

## "SALYAN-TAXIL" ASC-nin 2023-cü il dekabrın 31-nə mühasibat balansı

manatla

| Aktivlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər | 1,209,146.11 | 1,301,575.36 |
| Qeyri -maddi aktivlər | 0.00 | 0.00 |
| **Cəmi uzunmüddətli aktivlər** | **1,209,146.11** | **1,301,575.36** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 258.47 | 258.47 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,947.83 | 5,335.92 |
| Digər aktivlər | 3,602,256.57 | 3,491,659.97 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 | 0.00 |
| Qısamüddətli debitor borcları | 9,800.00 | 1,800.00 |
| **Cəmi qısamüddətli aktivlər** | **3,617,262.87** | **3,499,054.36** |
| **Cəmi aktivlər** | **4,826,408.98** | **4,800,629.72** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 3,241,534.00 | 3,241,534.00 |
| Kapital ehtiyatları | 785,257.28 | 785,257.28 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 0.00 | 0.00 |
| **CƏMİ KAPİTAL** | **4,026,791.28** | **4,026,791.28** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli borclar | 107,897.06 | 104,617.80 |
| Gələcək dövrün gəlirləri | 0.00 | 0.00 |
| Digər öhdəliklər | 691,720.64 | 669,220.64 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **799,617.70** | **773,838.44** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4,826,408.98** | **4,800,629.72** |

### Mənfəət və zərər haqqında hesabat

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| **Gəlirlər** | | |
| Əsas əməliyyat gəlirləri | 49,218.63 | 55,830.49 |
| Əməliyyat xərcləri | 37,578.57 | 26,601.24 |
| Ümumi mənfəət **(zərər)** | **11,640.06** | **29,229.25** |
| Ümumi idarəetmə xərcləri | 22,589.39 | 24,044.49 |
| Amortizasiya | 93,637.67 | 100,215.96 |
| Sair əməliyyat xərcləri | 6,009.60 | 4,771.72 |
| **Cəmi sair** əməliyyat **xərcləri** | **122,236.66** | **129,032.17** |
| Əsas **fəaliyyət** üzrə **mənfəət (zərər)** | **-110,596.60** | **-99,802.92** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 | 0.00 |
| Mənfəət vergisi | 0.00 | 0.00 |
| **Vergi tutulduqdan sonra mənfəət (zərər)** | **-110,596.60** | **-99,802.92** |
| Gəlirdən çıxılmayan xərclər | 0.00 | 0.00 |
| Sair düzəlişlər | 0.00 | 0.00 |
| **Hesabat dövründə xalis m**ənfəət **(zərər)** | **-110,596.60** | **-99,802.92** |

### Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat

| | 31 dekabr 2023-cü il |
|---|---|
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 |
| Hesabat dövründə xalis mənfəət | -110,596.60 |
| Digər düzəlişlər | 0.00 |
| Əlavə kapital | 785,257.28 |
| Amortizasiya xərcləri | 93,637.67 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | |
| Digər aktivlərdə artma və ya azalma | 110,596.60 |
| Ehtiyatlarda artma və ya azalma | 0.00 |
| Qısamüddətli debitor borcları artma və ya azalma | 8000.00 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 |
| Qısamüddətli kreditor borcları -artma və ya azalma | 3,279.26 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | -290.74 |
| **Əməliyyat fəaliyyətindən istifadə olunan xalis pul vəsaitləri** | |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Əsas vəsaitlərin alınması | -92,429.25 |
| Nizamnamə kapitalında artım | 0.00 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Borc verilmiş digər vəsaitlərdə xalis artma | |
| Dividendlər və buna oxşar digər ödəmələr pul şəklində | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma, azalma** | **-388.09** |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | **5,335.92** |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | **4,947.83** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Əlavə kapital | Kapitalının cəmi |
|---|---|---|---|---|
| **2022-ci il yanvarın 1-nə qalıq** | 3,241,534.00 | 0.00 | 785,257.28 | **4,026,791.28** |
| Nizamnamə kapitalında artım | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Xalis mənfəət artımı | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Sair düzəlişlər | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Əlavə kapital | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **3,241,534.00** | **0.00** | **785,257.28** | **4,026,791.28** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

Mən, SƏRBƏST AUDİTOR ŞƏRİFOV ƏRŞAD VÜSAL oğlunun (VÖEN:1201062092) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 15 yanvar 2021-ci il tarixli SA/460 saylı qeydiyyatlı icazəyə və "SALYAN-TAXIL" ASC ilə (VÖEN:7000208881)(bundan sonra "cəmiyyət" adlanacaq) bağlanmış 16 aprel 2024-cü il tarixli 78 nömrəli müqaviləyə əsasən 2023-cü il dekabrın 31-də bitən il üzrə cəmiyyətin balans hesabatının, mənfəət və zərər haqqında hesabatın, pul vəsaitlərinin hərəkəti hesabatın və kapitalda dəyişikliklər haqqında hesabatın cəmiyyət tərəfindən təqdim edilmiş sənədlər əsasında auditini apardım.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik Maliyyə Hesabatının Beynəlxalq Mühasibat Uçotu Standartları əsasında maliyyə hesabatlarının hazırlanmasına və ədalətli təqdimatına görə cavabdehdir. Rəhbərliyin məsul olduğu vəzifələrə aşağıdakılar daxildir:

maliyyə hesabatlarının saxtalaşdırmadan və hər hansı mühüm təhriflərə yol vermədən hazırlanması və ədalətli təqdimatına uyğun daxili nəzarətin planlaşdırılması, tətbiqi və saxlanılması;

müvafiq mühasibat uçotu siyasətlərinin seçilməsi və tətbiqi;

şəraitə müvafiq mühasibat qiymətləndirmələrinin aparılması.

**Auditorun məsuliyyəti**

Mənim məsuliyyətim apardığım auditin nəticəsinə əsaslanaraq bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən auditi audit standartlarına uyğun olaraq həyata keçirdim. Həmin standartlar tələb edir ki, mən etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşdıraraq həyata keçirim ki, maliyyə hesabatlarında əks etdirilən məlumatlarda əhəmiyyətli səhvlərin olmamasına kifayət qədər əmin olum.

Audit zamanı maliyyə hesabatlarında əks etdirilən məbləğlər və açıqlamalar üzrə sübutların təsdiq edilməsi üçün prosedurlar aparılır. Prosedurlar auditorun qərarından, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı mühüm risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin risk qiymətləndirmələrini apararkən, auditorun məqsədi təşkilatın daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy vermək deyil, şəraitə müvafiq audit prosedurlarının planlaşdırılması üçün təşkilat tərəfindən maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdimatının daxili nəzarət sisteminə uyğunluğunu nəzərdən keçirməkdir.

Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətlərinin və aparılmış mühasibat hesablamalarının müvafiqliyinin, eləcə də ümumi maliyyə hesabatlarının təqdimatının qiymətləndirilməsi daxildir.

Məncə, apardığım audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışam.

**Rəy**

Mənim rəyimə görə, bu icmal maliyyə hesabatları 2023-cü il dekabrın 31-nə "SALYAN-TAXIL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyət nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun əks etdirir.

**SƏRBƏST AUDİTOR: Şərifov Ərşad Vüsal oğlu**
**24 aprel 2024-cü il.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 130 (30534) 25 iyun 2024-cü il, çərşənbə axşamı

# “Klassiklərin də müasir baxışa ehtiyacları var...”

**Azərbaycanın teatr səhnəsinə istər rejissor, istərsə də aktyor kimi çox böyük sənətkarlar öz imzalarını həkk ediblər. Bununla yanaşı, ustadlar həm də milli teatrımıza özlərinin əvəzsiz töhfələrini veriblər. İndi bəziləri böyük sənətkarların keçmişdə qalması fikrini söyləməyi xoşlayırlar. Amma ətrafımıza diqqətlə boylansaq, yanımızda bizimlə eyni zamanı bölüşən ustad sənətkarların olduğunu görərik. Biz, sadəcə olaraq, bunun fərqinə varmırıq...**



Azərbaycanın tanınmış teatr rejissoru, Xalq artisti, Mədəniyyət və İncəsənət Universitetinin professoru, Azərbaycanda Kamera Teatrının yaradıcısı Cənnət xanım Səlimova məhz belə ustad sənətkarlardandır.

***– Cənnət xanım, uzun və mənalı bir ömrün ahıllıq mərhələsi necə keçir? Pensiyaçı olmaq sizdə hansı hissləri yaradıb?***

– Pensiyam elə iş başında keçir. Yaxşı ki, belədir, yoxsa həyat mənimçün dözülməz olardı. Universitetdə tələbələrimlə tamaşalar hazırlayırıq. Yəni bütün gün sevdiyim işlə məşğulam. Şükürlər olsun ki, məişət qayğılarım yoxdur, onlardan azadam. Etiraf edim ki, kommunal xərcləri ödəmək, səhhətimlə bağlı maddi sıxıntı çəkdiyim vaxtlar da olub. İndi o problemlər yoxdur və rahatlıqla sevimli işimlə yaşayıram. Sizi əmin edirəm ki, pensiya, mükafat kimi şeylər yalnız maddi problemləri aradan qaldırmaq üçündür, onlar işdən aldığın zövqü əvəz eləmir. Altmış ildən çoxdur ki, həm universitetdə dərs deyirəm, həm də teatrda işləyirəm. Bunlarsız həyatımı təsəvvür belə edə bilmirəm. Ona görə də Milli Gənc Tamaşaçılar Teatrında da hərdən uşaq tamaşaları hazırlayıram. Bu yaxınlarda S.S.Axundovun “Qaraca qız” əsərini yeni quruluşda səhnələşdirdik. Gündüz premyerası oldu, axşam isə çoxdan hazırladığım “Lənkəran xanının vəziri” tamaşası oynanıldı. Milli status verilən teatrın ilk işi klassikanı təbliğ etməkdir. Milli Gənc Tamaşaçılar Teatrı ölkədə yeganə teatrdır ki, M.F.Axundzadənin bütün əsərlərini səhnələşdirilib. Gənc nəsil bu zəngin ədəbi irsi bilməlidir. Hüseyn Cavidin “Şeyx Sənan” əsəri 30 ildir səhnədən düşmür. Bu teatrda Cəfər Cabbarlının “Aydın” dramını səhnələşdirmişəm. Əsas məsələ milli irsin qorunması və gənc nəslə ötürülməsidir. Molyer, Şekspir yaradıcılığı da həm millidir, həm də dünyavi.

***– Klassik əsərlərə səhnə həlli verəndə onu bu günlə əlaqələndirmək lazımdır, yoxsa klassika olduğu kimi saxlanmalıdır?***

– Mütləq yenilik lazımdır. Hətta Mirzə Fətəli bu gün yeni, müasir yanaşma tələb edir. Çünki o, çar məmuru idi, bəzi hallarda istədiyi kimi yox, tələb olunduğu kimi yazmağa məcbur idi. Bəzi əsərlərində Qafqazda Çar Rusiyasının təbliğatını yeritməli idi. Deməli idi ki, bu xalq ancaq quldurluqla, çapıb-talamaqla məşğul olub, ruslar bunlara mədəniyyət gətirdi. Bax, bu, adama çox ağır gəlir. Nizamini, Nəsimini, Vaqifi yetirən xalq bu münasibətə layiq deyil. Ona görə də mən Axundzadənin əsərlərinin quruluşuna yeni, müasir və fərqli bucaqlardan yanaşıram. Bu yaxınlarda tələbələrimlə “Hacı Qara”nı hazırladım və Heydərin monoloqunu mətndən tamamilə çıxartdım. Çünki orada deyir: “Ömür boyu oğurluq-quldurluqla yaşamışıq, indi necə olacaq...?”.

Guya, Çar Rusiyası bizə mədəniyyət, mənəviyyat gətirib. Əslində, qətiyyən belə deyil. Teatr kitabxana deyil, canlı orqanizmdir. O, tamaşaçıya, mühitə, ətrafda və dünyada baş verənlərə reaksiya göstərməlidir. Teatr ədəbiyyata müasir dövrün nəzəri ilə yanaşmalıdır.

***– İlk ixtisasınızın filoloq olması burada özünü büruzə verir. Gəlin, yaradıcılıq yolunuzun başlanğıcına qayıdaq. Necə oldu ki, filoloq məşhur rejissora çevrildi?***

– Mən hələ də filoloqam. Mütaliəni çox sevirəm. Müasir poeziyanı izləyirəm, oxuyuram. Valideyinlərimə minnətdaram, mənə dedilər ki, normal diplom al, rejissorluğu oxuyub aldığın diplom bizə lazım deyil. Orta əsrlər ədəbiyyatını, antik ədəbiyyatı, Azərbaycan, rus, ingilis ədəbiyyatını bilmək işimə çox yarayır. Yeri gəlmişkən, Azərbaycan ədəbiyyatından çox gözəl müəllimim vardı. İndi gənc rejissorun həqiqətən savadlı, intellektli olması nadir haldır. Biz tamaşaçıya mənəviyyat ötürürük. Buna görə də, ən azı, yarım addım ondan öndə olmalıyıq. İndi zaman başqadır, şounu bildilərsə, deməli, uğurludurlar. Neynəmək olar, yəqin onlar da lazımdır, amma biz də lazımıq.

***– Ömrünü Azərbaycan teatrına həsr etmiş sənətkar kimi hansı dövrü bizim teatr mədəniyyətinin renessansı hesab edirsiniz?***

– Şahidi olduğumu deyəcəm. Milli Dram Teatrında eyni vaxtda səhnəyə Hökümə Qurbanova, Ələsgər Ələkbərov, Leyla Bədirbəyli, Məhluqə Sadıqova, İsmayıl Osmanlı, Səməndər Rzayev, Amalya Pənahova, Həsənağa Turabov, Şəfiqə Məmmədova, Hamlet Qurbanov, Hamlet Xanızadə, Fuad Poladov çıxırdılar. Sonra hamısı yaxın zamanlarda getdi. Ya səhnədən, ya da həyatdan. Yeni nəsil onları əvəz edə bilmədi. İndi həmin səhnədə o sənətkarlara bərabər aktyor görmürəm. Amma inanıram ki, həmin dalğa təkrarlanacaq.

***– Səməd Vurğun adına Rus Dram Teatrı, Musiqili Teatr sənət yolunuzda uğur pillələri olub. Bəs, Kamera Teatrını yaratmaq istəyi nədən yarandı?***

– Opera Teatrında da işləmişəm. Kamera Teatrı yaradıcılığımın ən xoşbəxt dönəmidir. Sevimli tələbələrimlə yaratmışdıq o teatrı. Bütün arzularımızı Kamera Teatrında həyata keçirdik. Zəngin repertuarımız vardı. Həmin əsərlər hələ də Milli Gənc Tamaşaçılar Teatrının səhnəsində oynanılır. O teatrda çox istedadlı aktyorlar çalışırlar. Tez-tez qastrollara gedərdik, bizi tanıyırdılar. Bizə bina vermədilər, olduğumuz yerdən çıxardılar, dağılmalı olduq. Başqa çıxış yolu olmadı, amma bu gün etiraf etmək lazımdır ki, bu, heç də düzgün çıxış yolu deyildi. Əsas odur ki, tamaşaçını itirmədik, o, bizi bu gün də Milli Gənc Tamaşaçılar Teatrının səhnəsində izləyir.

***– Sonuncu sualımız teatrdan kənar olacaq. Dünya şöhrətli soydaşımız Lütfi Zadənin xalası qızı olmaq sizə nə verib, həyatınıza əlavə nə dəyər gətirib?***

– O, qeyri-adi insan idi. Yaxın ətrafı alimlər, onun kəşflərini alqışlayan adamlardan ibarət olardı. Doğrudur, o, tərif eşitməyi xoşlamazdı. Vaxtı o qədər məhdud idi ki, mən də istəməzdim onu teatrda itirsin.

***Ramilə QURBANLI***
***XQ***

İDMAN

## Azərbaycan Kazanda 34 medal qazanıb

**Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən “BRICS Sports Games Kazan 2024” beynəlxalq multi-idman yarışı başa çatıb.**



Turnirə Tatarıstanın “Sabantuy” xalq festivalı ilə yekun vurulub. Tədbirdə əvvəlcə iştirakçı ölkələrin bayraqları səhnədə nümayiş etdirilib. Tatarıstanın adət-ənənələrini əks etdirən nümunəvi çıxışlar, əyləncəli oyunlar, müxtəlif idman növləri üzrə idmançıların çıxışları təqdim edilib. Festival konsert proqramı ilə davam edib.

Qeyd edək ki, Azərbaycan idmançıları yarışda 4-ü qızıl, 9-u gümüş, 21-i bürünc olmaqla 34 medal qazanıb.

## “Atletika bürüncü”ndə bürünc medal

**Qazaxıstanın Almatı şəhərində Dünya Atletikasının bürünc səviyyəli yarışı olan XXXIII Qusman Kosanov Memorialı keçirilib.**



Yarışda iştirak edən milli komandamızın üzvü Rüstəm Məmmədovun 3 təkanla tullanmada göstəricisi 16.12 metr olub. Bu nəticə ilə o, bürünc medal qazanıb.

## Beynəlxalq turnirdə 3 mükafat

**Polşanın paytaxtı Varşavada beynəlxalq turnirdə Azərbaycan güləşçiləri 3 medal qazanıblar.**



Ənənəvi yarışda ölkəmizi sərbəst güləşçilərimiz Sabir Cəfərov (70 kq), Əşrəf Aşırov (79 kq) və Abubakr Abakarov (92 kq) təmsil ediblər. Sabir və Abubakr qızıl, Əşrəf isə gümüş medala sahib olublar.

***L.QURBANOVA***
***XQ***




## Nabranda Sabantuy bayramı

**Xaçmaz rayonunun Nabran qəsəbəsində tatarların milli bayramı – Sabantuy təntənəli şəkildə qeyd olunub. Bu barədə mətbuatda yayılan xəbərdə qeyd olunur ki, iyunun 23-ü Nabranda təşkil olunan bayram tədbirində tatarların milli musiqi və rəqsləri, Azərbaycan və tatar milli mətbəxinin dadlı təamları, əyləncəli müsabiqələr təqdim edilib.**



Bayram şənliyində Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Ruslan Quliyev, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdakimov, Tatarıstan Respublikasının mədəniyyət nazirinin müavini Dəmir Natfullin və başqaları çıxış edərək Sabantuy bayramının ölkəmizdə ənənəvi şəkildə qeyd olunmasını xalqlarımız arasında dostluq münasibətlərinin göstəricisi olduğunu vurğulayıblar.

Xatırladaq ki, Kənd təsərrüfatı ənənələri və aqrar mədəniyyət ilə bağlı olan Sabantuy tarlalarda məhsul yığımının başa çatması münasibətilə keçirilən bayramdır.

Bayram şənliyində tatar estradasının tanınmış nümayəndələri populyar tatar mahnıları, özfəaliyyət kollektivləri isə milli folklor nümunələri ifa ediblər. Pəhləvanlar tatarların milli güləş növü olan kureşdə güclərini sınayıblar.

***XQ***

Hava

## Aranda yağmursuz, dağlarda yağıntı, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 25-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək.**



Lakin günün birinci yarısında havanın qısamüddətli tutulacağı, bəzi şəhərətrafı ərazilərdə az yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək. Gecə 20-25°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunundan 752 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi dağlıq və dağətəyi rayonlarda arabir güclənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 32-37°, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

*✓ İ. M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı tərəfindən müalicə işi fakültəsinin II kurs tələbəsi Əzimova Zəminə Mehman qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

Tahir Aydınoğlu, Hikmət Zeynalov, İlqar Həsənov, Ruslan Rəfizadə, İmran Bədirxanlı, Fəxri Əliyev, Şahin Əliyev və Azər Əliyev dostları İlham İsmayıla bacısı

**DİLŞAD XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin deputatı Ülvi Quliyevə anası

**DİNA PƏNAHOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Respublika Pediatriya Mərkəzi” Publik Hüquqi Şəxsin direktoru Azər Əhmədov və kollektivi Nərimanov Uşaq Klinik Xəstəxanasının təcili təxirəsalınmaz tibbi yardım şöbəsinin müdiri Sevinc Hüseynovaya anası

**TAMELLA İSMAYILOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4090
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00